www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 avqust 2017-ci il Çərşənbə № 175 (6789) Qiyməti 60 qəpik

**Xəbər**

## Kürdəmir məktəblisi zorlanmaya görə həbs edildi- təfərrüat

yazısı səh.10-da

**Gündəm**

### Bir gündə iki işğal




Füzuli və Cəbrayılın işğalından 24 il keçdi

yazısı səh.3-də

### Nazir təyinatı təkzib olunan polis general-mayoru kimdir?

yazısı səh.6-da

### Valideynlərin repetitor dərdi - çıxış yolu nədədir...

yazısı səh.10-da

### Ekspertlərdən ermənilərin "sərhəd açılacaq" ümidini puç edən açıqlamalar

yazısı səh.4-də

### Yeni vitse-prezident təyinatları niyə olmadı?

yazısı səh.5-də

### Günəş tutuldu və açıldı - fəlakət olmadı, amma...

yazısı səh.12-də

### Dünyanın ən təhlükəli dini sektaları barədə bilmədiklərimiz

yazısı səh.14-də

### "Qarabağ", sən qapını, Allah səni qorusun!

yazısı səh.15-də

### Turistləri təkcə biz aldatmırıq - Avropadakılar bizə dərs keçər

yazısı səh.12-də

### Ziya Məmmədovla Arif Əsgərova necə il iş düşə bilər

yazısı səh.9-da

## İşğalçının Qərb şıltaqlıqlarına Kremldən ilginc reaksiya

# MOSKVADAN "YUMŞAQ GÜC" NÜMAYİŞİ - İRƏVAN ÜÇÜN SÜRPRİZ QARABAĞ SSENARİSİ

Rusiya xüsusi təyinatlılarının Ermənistanda ermənilərsiz keçirdiyi təlimlərlə düşmənə verilən incə mesaj; "Avropa Birliyi ilə sənəd imzalamağa gedirik" söyləyən baş nazir Karapetyan nədən nəticəyə əmin deyil?..




yazısı səh.8-də

## Eldar Mahmudovu Nardaranda saxlayan səbəb

"MTN işi" yekunlaşır, bütün suallara cavab verməli olan sabiq nazir isə ortaya çıxarılmır

yazısı səh.5-də



### Əbülfəz Elçibəy məzarı başında anıldı

yazısı səh.3-də



Əli Əliyev

### Partiya sədri müxalifəti Qurana and içdirməyi təklif edir

yazısı səh.6-da



### Putin Sərkisyanın "qulağını çəkmək üçün" bu gün görüşə çağırdı

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 175 (6789) 23 avqust 2017



## Azərbaycana nə qədər ərəb gəlib? - rəsmi açıqlama

**2017-ci ilin yanvar-iyun ayları ərzində dünyanın 139 ölkəsindən 1203,7 min əcnəbi və vətəndaşlığı olmayan şəxs Azərbaycana gəlib.**

"Qafqazinfo" xəbər verir ki, Dövlət Statistika Komitəsinin hesablamalarına görə, bu ötən ilin eyni dövrü ilə müqayisədə 24,5 faiz çoxdur. Gələnlərin 31,2 faizi Rusiya Federasiyası, 21,2 faizi Gürcüstan, 15,0 faizi İran, 11,6 faizi Türkiyə, 3,7 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,3 faizi Ukrayna, 14,9 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub.

Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 13,3 faizi yanvar ayında, 12,8 faizi fevral, 20,4 faizi mart, 15,6 faizi aprel, 17,6 faizi may, 20,3 faizi isə iyun ayında ölkəyə gəlib.

Körfəz ölkələrindən gələnlərin sayının daha çox olması bu dövrdə ölkəmizə gəlmiş xarici ölkə vətəndaşlarının sayının artmasına təsir edən əsas amil olub. Belə ki, Oman vətəndaşlarının sayı 16,0 dəfə, Küveyt vətəndaşlarının sayı 8,7 dəfə, Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 6,0 dəfə, Qətər vətəndaşlarının sayı 6,0 dəfə, Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı 4,4 dəfə, Bəhreyn vətəndaşlarının sayı 3,5 dəfə, İran vətəndaşlarının sayı 1,9 dəfə, İraq vətəndaşlarının sayı 1,8 dəfə artıb. Bu dövrdə Körfəz ölkələrindən ümumilikdə 263,5 min nəfər gəlib və Azərbaycana səfər etmişlərin ümumi sayında onların xüsusi çəkisi 21,8 faiz təşkil edib.

Cari ilin yanvar-iyun ayları ərzində Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 14,8 faiz artaraq 51,2 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 17,7 faiz artaraq 438,3 min nəfər olub.

2017-ci ilin yanvar-iyun aylarında ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər səfər zamanı daha çox yerüstü yol nəqliyyatından istifadə edib. Belə ki, bu nəqliyyat növündən istifadə edənlərin ümumi yekunda xüsusi çəkisi 51,9 faiz, hava nəqliyyatından istifadə edənlərin 47,6 faiz, su nəqliyyatından istifadə edənlərin xüsusi çəkisi isə 0,5 faiz olub.

## "Ayaz Mütəllibov Həcc ziyarətinə getməlidir"- Hacı Əbdül

**Bir neçə müddət bundan əvvəl "Tövbə" Cəmiyyətinin sədri Hacı Əbdül Əbdülov saytımıza açıqlamasında 29-cu dəfə Həcc ziyarətinə gedəcəyini söyləmişdi. Hətta oğlu Hacı Əbdülü də aparacağını demişdi. Lakin əldə etdiyimiz məlumata görə, builki Həcc ziyarətinə gedə bilməyəcək.**

Məsələ ilə bağlı Hacı Əbdül Əbdülov modern.az saytına açıqlama verib. "Bu il Həcc ziyarətinə gedə bilməyəcəyəm. Həcc ziyarətinə getməməklə bağlı qərarımı yenicə verdim. Halbuki oğlum Əbdüllə builki Həcc ziyarətinə getməyə tam hazır idik. Əgər getsəydim, 29-cu dəfə ziyarətim gerçəkləşəcəkdi. Sənədlərimizi də vermişdik". Hacı Əbdül builki Həcc ziyarətinə getməməsinin səbəbini də açıqlayıb.

"Ona görə ki, "İmam Hüseyn" məscidi təmirə dayanıb. Heydər Əliyev Fondunun dəstəyi ilə məscidin təmir olunması tapşırılıb. Qərara aldım ki, bu müddətdə məscidin təmirinə nəzarət edim. Ona görə də Həcc ziyarətinə getməmək qərarını verdim".

**Hacı Əbdül Həcc ziyarətinə gedə bilməsə də, bir çoxlarının bu ziyarəti gerçəkləşdirməsini xüsusi vurğulayıb.** "Bütün müsəlmanlar Allahın evini ziyarət etməlidirlər. Tez-tez eks-prezident Ayaz Mütəllibovla bağlı sual verirlər. Yenə deyirəm: Ayaz Mütəllibov da Həcc ziyarətinə getməlidir. O zaman pak və saf olacaqlar".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# İtkin düşmüş neftçilərdən sonuncusu da tapıldı

**Dənizdə itkin düşmüş neftçilərdən birinin meyiti tapılıb. Həyata keçirilən axtarış-xilasetmə əməliyyatları nəticəsində avqustun 18-i saat 18:10-da Daş Zirə (köhnə Vulf adası) adasında aşkar edilən kişi meyitinin "Azneft" İB-nin N.Nərimanov adına Neftqazçıxarma İdarəsinin 1 saylı Neftqazçıxarma sahəsində "əmtəə operatoru" vəzifəsində çalışmış 4 yanvar 1979-cu il təvəllüdlü Əsədov Samir Atabala oğluna məxsus olduğu müəyyən edilib.**



Mərhumun meyiti ailəsinə təhvil veriləcək.

Qeyd edək ki, meyiti aşkar edilən Əsədov Samir Atabala oğlu itkin düşən neftçilərin sonuncusu idi.

Bununla da, itkin düşən neftçilərin hamısı Qərargahın həyata keçirdiyi axtarış-xilasetmə əməliyyatları nəticəsində tapılaraq ailəsinə təhvil verilib və axtarış-xilasetmə əməliyyatlarına yekun vurulub.



## Bu gün Bakıda 37 dərəcə isti olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, avqustun 23-də Bakıda və Abşeron yarımadasında hava günəşli olacaq. Şimal-şərq küləyi gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 23-26° isti, gündüz 32-37° isti, Bakıda gecə 24-26° isti, gündüz 35-37° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 758 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 60-65%, gündüz 40-45% olacaq.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 25-26°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 26-27°, Türkan, Hövsan, Sahil, Şıxda 27-28° isti təşkil edəcək.

Azərbaycanın rayonlarında sabah hava yağmursuz, gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 20-25°, gündüz 34-39° isti, dağlarda gecə 13-18°, gündüz 25-30° isti olacağı gözlənilir.

## Məşhur türk millətçisi MHP-dən istefa verdi



**Türkiyənin Milliyətçi Hərəkat Partiyasının (MHP) fəal üzvlərindən olan, millət vəkili Koray Aydın partiyadan istefa verdiyini açıqlayıb. "Sputnik Azərbaycan" "Sözcü"yə istinadən xəbər verir ki, Koray Aydın bir müddət əvvəl MHP-dən ayrılıb yeni partiya qurmağa hazırlaşan Meral Akşenerin yanında yer alacağını söyləyib.**

"Mövcud iqtidarı haqq-hesaba çəkmək üçün yeni qurulacaq partiyaya qoşulmağa qərar verdim. Bu səbəblə də MHP-dən ayrılıram. Quracağımız yeni partiya ilə türk millətinin önünə yeni üfüqlər açmağa gəlirik. Rahat olanları narahat etmək üçün gəlirik. Bu, milli bir vəzifədir" - K. Aydın bildirib.

"Ülkücü hərəkatın quruluş prinsipləri və idealları mövcud rəhbərlik tərəfindən çox təəssüf ki, tərk edilib. Sırf fərqli namizədi dəstəklədikləri üçün partiyalı qardaşlarımız ata ocaqlarından qovulmuş və nəhayət, başqalarına göstərilən tolerantlıq ülküdaşlarımızdan əsirgənilmişdir" - o əlavə edib.

## Erməni podpolkovnik və kapitan yaralandı

**Ermənistan ordusunun Azərbaycanın işğal edilmiş ərazilərində yerləşdirilmiş hərbi hissələrindən birində iki zabitin yaralanması ilə nəticələnən insident baş verib. Virtualaz.org sosial şəbəkələrin erməni seqmentinə istinadən xəbər verir ki, təmas xəttinin Ağdərə-Tərtər istiqamətində yerləşən hərbi hissədə baş vermiş silahlı insident nəticəsində yaralananlar podpolkovnik və kapitan rütbəli zabitlərdir. Onlardan birinin kimliyi də göstərilir-Arsen Hovakimyan.**

Ermənistan Müdafiə Nazirliyi bu faktı ictimaiyyətdən gizlədir və Azərbaycan tərəfini atəşkəsin pozulmasında ittiham etməyə çalışır. Xatırladaq ki, bundan əvvəl erməni qüvvələrinin Ağdərənin Matagiz qəsəbəsində yerləşən hərbi hissəsində zabitin iki əsgəri bərk döydüyü məlum olmuşdu. Ötən gün isə Ermənistan ordusunun kapitanı özünü güllələyib.

## Bakıda avtobus sürücüsünə silah çəkən şəxs tutuldu

**Avqustun 21-də gecə saatlarında Binəqədi Rayon Polis İdarəsi əməkdaşlarının həyata keçirdiyi operativ-istintaq tədbirləri nəticəsində Bakıda avtobus sürücüsünə tapança ilə hədə-qorxu gəlmiş 29 yaşlı Orxan Orucov saxlanılıb. Bu barədə virtualaz.org-a DİN mətbuat xidmətinin rəhbəri Ehsan Zahidov xəbər verib.**

Axtarış zamanı saxlanılan şəxsin üstündən pnevmatik tapança və 7 qram heroin aşkar edilərək götürülüb.

İlkin istintaq zamanı müəyyən olunub ki, bir neçə gün öncə Orxan Orucov daha bir cinayət törədib. Yasamal rayonunun ərazisində o, hədə-qorxu gəlməklə dələduzluq hərəkəti törədib və başqasına məxsus olan 16 min manat pulu mənimsəyib. Bu səbəbdən də axtarışa verilib.

Məhkəmənin qərarı ilə Orxan Orucov barəsində 3 ay müddətinə həbs-*qətimkan tədbiri seçilib. İş üzrə operativ-istintaq tədbirləri davam etdirilir.



## "Suriyada yeni dövlətin yaranmasına imkan verməyəcəyik"

**Türkiyə Suriyanın şimalında yeni kürd dövlətinin yaranmasına icazə verməyəcək.**

Virtualaz.org Türkiyə KİV-ə istinadən bildirir ki, bunu prezident Rəcəb Tayyib Ərdoğan yerli icra başçılarının 39-cu toplantısında deyib.

R.T.Ərdoğan qeyd edib ki, YPG və PYD üçün hər hansı dövlətin qurulması yolverilməzdir: "Bəziləri "kürd dövləti" deyib durur. YPG və PYD terror təşkilatlarıdır. Suriyada başqa bir dövlətin qurulmasına əsla icazə verməyəcəyik. Bu vətəni bölməyə çalışanlara hər tərəfi məzar edərik".

Suriyanın şimalında 2 min kvadratkilometrin Türkiyənin nəzarəti altında olduğunu xatırladan Ərdoğan bəyan edib ki, o və ölkəsi terrorçuların planına mane olmaq üçün əllərindən gələni edəcək: "Cerablus, Rai, Əl-Babı terrorçulardan təmizlədik. Oradakı 2 min kvadratkilometrlik sahəyə nəzarət edirik. Onların hədəfi Aralıq dənizinə çıxmaqdır. Cudi, Tendürek, Kandil, Gabarda terrorçulara qarşı apardığımız mübarizəni hər yerdə davam etdirəcəyik".

## Azərbaycan Belarusdan çörək almağa başlayıb

**Belarusun çörək və un məmulatları istehsalçısı olan "Qrodnoxlebprom" ASC Azərbaycana 15 adda çörək-bulka məmulatı göndərib.**

Virtualaz.org "teleskop-by.org" nəşrinə istinadən xəbər verir ki, müəssisə hər ay Rusiyaya təxminən 3 ton çörək tədarük edir. Tələbat olduğundan yaxın vaxtlarda ixracın həcminin artırılması planlaşdırılır.

Eyni zamanda "Qrodnoxlebprom"un çörək-bulka məmulatları Nyu-York, Los-Anceles də daxil olmaqla, dünyanın başqa bazarlarına da ixrac edilir.

YENİ MÜSAVAT
N 175 (6789) 23 avqust 2017

# Əbülfəz Elçibəy məzarı başında anıldı

## Milli azadlıq hərəkatının lideri, AXC-nin sədri, eks-prezident Əbülfəz Elçibəyin vəfatının 17 ili tamam oldu

**Avqustun 22-si Azərbaycan milli azadlıq hərəkatının lideri, Azərbaycan Xalq Cəbhəsinin sədri, eks-prezident Əbülfəz Elçibəyin anım günü idi.**

Xatırladaq ki, Ə. Elçibəy 1938-ci il iyunun 24-də Ordubad rayonunun Kələki kəndində anadan olub. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirib. O, 1988-ci ildə Azərbaycanda başlayan xalq hərəkatının öndərlərindən biri, Azərbaycan Xalq Cəbhəsini yaradanlardan olub. 1992-ci ildə prezident seçilən Əbülfəz Elçibəy bir il sonra Gəncədə başlayan qiyam nəticəsində Bakını tərk edərək Kələkiyə gedib. Milli Məclisin qərarı ilə səlahiyyətləri ləğv edilən Əbülfəz Elçibəy fəaliyyətini Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri kimi davam etdirib.

Uzun sürən ağır xəstəlikdən sonra 2000-ci ilin avqustun 22-də Türkiyənin Gülhanə Hərbi Tibbi Akademiyasında dünyasını dəyişən Əbülfəz Elçibəyin nəşi Bakıya gətirilərək Fəxri Xiyabanda dəfn edilib.

Ə.Elçibəyin anım günü onun məzarı başında anılıb.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası (BAXCP) İdarə Heyətinin üzvləri, rayon təşkilatlarının sədrləri milli-azadlıq hərəkatının lideri, eks-prezident Əbülfəz Elçibəyin məzarını ziyarət ediblər. Partiyanın mətbuat xidmətinin məlumatına görə, Fəxri Xiyabanda Əbülfəz Elçibəyin vəfatının ildönümü ilə bağlı keçirilən aksiyada **BAXCP sədri, millət vəkili Qüdrət Həsənquliyev** Elçibəyin Azərbaycan tarixində oynadığı mühüm roldan danışıb. O, Əbülfəz Elçibəyin xalqını, millətini, dövlətini və vətənini təmənnasız sevən, Azərbaycan siyasətinə təmizlik və dürüstlük gətirən siyasət adamı olduğunu deyib: “Onun ideyalarını BAXCP olaraq biz bu gün də yaşadırıq və yaşadacağıq. Əbülfəz Elçibəyin xatirəsi hər zaman əziz tutulacaq və ehtiramla anılacaq”.

Sosial şəbəkələr vasitəsilə yayılan məlumata görə, Ə.Elçibəyin məzarını Müsavat Partiyası, AXCP, KXCP və digər siyasi təşkilatlar, həmçinin Elçibəysevər sıravi insanlar ziyarət edib, onun ruhuna dua oxuyublar, Türk dövlətlərinin bayraqları ilə bəzədilmiş məzarı üstünə güllər düzüblər.

**Ə.Elçibəyin anım günündə onun ailə üzvləri ilə danışmaq istəsək də, bu, mümkün olmadı. Silahdaşları isə onunla bağlı xoş sözlər söylədilər.**

**“Azərbaycan var olduqca Əbülfəz Elçibəy var olacaq və adı M.Ə Rəsulzadə ilə qoşa çəkiləcək. Artıq Rəsulzadə-Elçibəy yolu deyilən Azərbaycanın parlaq gələcəyini təmin edəcək yol xəritəsi də var”. Bu fikirlər Elçibəyin silahdaşlarından biri, “Borçalı” Cəmiyyətinin sədri Zəlimxan Məmmədliyə məxsusdur. O, “Yeni Müsavat”a bildirdi ki, Əbülfəz Elçibəy fenomeni zaman-zaman təhlil olunur və olunacaq da:** “Onun mahiyyəti, onun ciddi taktik və strateq olduğu artıq ciddiliyi ilə qəbul olunmaqdadır. Bu hakimiyyətin də mahiyyəti çılpaqlığı ilə ortadadır. Əbülfəz Elçibəy hakimiyyəti niyə verdi sualına da ən dəqiqliyi ilə aydınlıq gəlməsi ərəfəsini yaşamaqdayıq”. Z.Məmmədlinin sözlərinə görə, illərdir müzakirə və mübahisələrə səbəb olan və bitməyən Kələki hicrəti ayrıca dəyərləndiriləcək: “Bugünkü Azərbaycanın istiqlalının var olması hələ bəzilərinin dərk etməkdə çətinlik çəkməsinə baxmayaraq, cəsarətlə deyə bilərəm ki, məhz Əbülfəz Elçibəyin o dövr üçün yeganə düzgün qərar qəbul etməsi ilə bağlıdır. Əbülfəz Elçibəyin atdığı addımlar Azərbaycanın istiqlalı naminə atılmış addımlardır. Təbii, yorucu bir mərhələni keçdik. Elçibəyin varlığını özlərinə manea bilənlər də Elçibəy yolunun alternativsizliyinə inanmaqdadırlar. Bu gün ağır şərtlər altında siyasət meydanında milli azadlıq insanlarının yenə də Azərbaycan deyərək var olmasında, milli demokratik mübarizə meydanı dar da olsa siyasi partiyaların var olmasında prezident Elçibəyin unikal gedişinə minnətdar olmalıdırlar. Bu gün istiqlalımıza son qoymaq üçün Rusiya əlaltıları ilə iş başındadırlar. Amma hamı bilməlidir, dərk etməlidir ki, bu, mümkün olmayacaq. Çünki Elçibəy məktəbini keçən və ondan qidalanan yüz minlər, milyonlar var. Ölüm haqdır. Bəyin ruhu şad olsun! Düşünürəm ki, mən Bəyi, onun mənəvi-ruhani dünyasını dərindən bilir və dərk edirəm. Onun ruhu bizi mənəvi birliyə, səfərbərliyə, milli müqavimətə, demokratiya və bütövlük uğrunda son və qəti qələbəyə səsləyir”.





**AXC İdarə Heyətinin ilk üzvlərindən olmuş, həmçinin Elçibəy iqtidarında diplomatik vəzifə daşımış Hikmət Hacızadə isə 1 illik AXC hakimiyyəti dönəmində (8 iyun 1992 - 15 iyun 1993) Ə.Elçibəyin gördüyü işləri sadaladı:** “Budur Elçibəyin 1 illik hakimiyyəti zamanı etdikləri: 1 illik Elçibəy hakimiyyəti dönəmində Milli Ordu yaradıldı, sərhədlərimiz yaradılmış Milli Sərhəd Qoşunları tərəfindən qorunmağa başlandı, sovet respublikaları arasında rus ordusu ilk olaraq Azərbaycan Respublikası ərazisindən çıxarıldı (25 may 1993), - pambıq yığımına əhalinin zorla məcbur edilməsi praktikasına son qoyuldu; müəllimlərin maaşları kəskin şəkildə artırıldı, milli azlıqların hüquqları (dil, tarix, mədəniyyət) ilə bağlı fərman imzalandı, Azərbaycan türklərinin kimliyi, tarixi və mədəniyyəti bərpa olundu, qəbul imtahanlarında rüşvətə son qoyan test sistemi tətbiq olundu, bütün siyasi partiyalar qeydə alındı; məscidlər dindarlara qaytarıldı, bütün qəzetlərə rəsmi fəaliyyət icazəsi verildi; milli valyuta - manat dövriyyəyə buraxıldı; latın əlifbasına keçid təmin olundu; latın əlifbasında 70-ə qədər dərslik buraxıldı; kənd əhalisinə torpaq paylanmasına başlandı”.1992-ci il iyunun 12-si ilk dəfə olaraq Dağlıq Qarabağda irimiqyaslı hərbi əməliyyatlar başladı; Ağdərə bölgəsi, Goranboy ərazisi, Laçının 33 kəndi, Cəbrayılın 10 kəndi erməni və rus silahlı birləşmələrindən təmizləndi, Brüsseldə Avropa İttifaqı Dağlıq Qarabağa dair ilk bəyanat qəbul etdi (22 may 1992-ci il)" **H.Hacızadə qeyd etdi ki, Kəlbəcər rayonu rus-erməni hərbi birləşmələri tərəfindən işğal olunduqdan sonra BMT Təhlükəsizlik Şurasının ilk qətnaməsi də - 822 nömrəli - o dövrdə qəbul olunmuşdu:** “Həmçinin Qarabağ müharibəsi zamanı genişmiqyaslı uğurlu hərbi əməliyyatlar aparıldı (13 iyun 1992); Ermənistanı ilk təcavüzkar ölkə kimi tanıyan təşkilat "İslam Konfransı Təşkilatı" oldu (17 iyun 1992)".

**Ə.Elçibəyin hazırda Türkiyədə yaşayan kürəkəni Aqil Səmədbəyli isə “Yeni Müsavat”a açıqlamasında aşağıdakıları bildirdi:** “Azərbaycan Milli Azadlıq Hərəkatının lideri, Azərbaycanın halal seçki ilə seçilən ilk və hələlik son ədalətli cümhurbaşqanı Əbülfəz Elçibəyin əbədiyyətə qovuşmasından 17 il keçdi. Bu 17 ildə qaranlıq qalan çox mətləblər aydınlığa qovuşdu. Kimlərəsə qaranlıq qalan məqamlar varsa, bəlli zaman sonra onlar üçün də hər şey aydın olacaq. Özünün dediyi kimi, "Hər şeyin zamana ehtiyacı var". Liderlik Tanrı tərəfindən verilən bir özəllikdir. Bu, mənim fikrim deyil, liderlik mövzusunda aparılan araşdırmaların elmi nəticəsidir. Liderlik öyrənilmir, Lider doğulur! Təkbaşına bir millət idi Elçibəy. Bir açıqlaması ilə bir neçə böyük dövləti birdən təşvişə salacaq qədər güclü bir millət! İndi yeri necə də görünür. Dahilərin taleyi belədir - zamanı çox qabaqladığı üçün, öz zamanında hətta yanında olanların çoxu belə, onu alaya bilmir. İndi onun böyüklüyü dərk olunmağa başlayıb. Hələ bu başlanğıcdır... Zamanla hər kəs dərk edəcək. Qurtuluşumuz o zaman olacaq! Onunla bütünləşəndə!"

❑ **Cavid TURAN**





# Bir gündə iki işğal

## Füzuli və Cəbrayılın işğalından 24 il keçdi

**Bu gün Azərbaycanın Füzuli və Cəbrayıl rayonlarının Ermənistan tərəfindən işğalından 24 il keçir. 23 avqust 1993-cü ildə Ermənistan hərbi birləşmələri tərəfindən işğal edilən Füzuli rayonunun ümumi sahəsi 139393 hektardır. Füzuli rayonunun qərb hissəsindən (50 kənd və rayon mərkəzi) 125368 hektar ərazi hələ də erməni işğalı altındadır. Rayonun işğaldan azad olunmuş ərazisində isə 13 qəsəbə və 20 kənd var.**

1988-ci ildən başlayan erməni təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşüb, yüzlərlə rayon sakini şəhid olub, yaralanıb, itkin düşüb. Füzuli rayonu müharibədə 1100-dən çox şəhid verib, 1450 rayon sakini əlil olub.

Erməni işğalı altında olan Füzuli rayonu təbii sərvətlər baxımından çox zəngindir. Rayonda ümumi ehtiyatları 58858 min kvadrat metr olan və mişar daşı istehsalına yararlı istismar olunan 2 (Dövlətyarlı, Dilağar) əhəngdaşı, kərpic-kirəmit istehsalına yararlı 11211 min kvadrat metr ehtiyatlara malik Kürdmahmudlu gil, ehtiyatları 13053 min kvadrat metr olan Quruçay qum-çınqıl qarışığı yataqları var.

Rayon ərazisində yaşı 200 ildən 1400 ilə qədər olan 11 ədəd Şərq çinarı təbiət abidəsi kimi pasportlaşdırılıb və işğala qədər mühafizə olunub.

Füzuli rayonu Azərbaycan xalqının ən qədim yaşayış məskənlərindən biri kimi də tanınır.

1993-cü ilin 23 avqustunda Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumu Cəbrayıl rayonunun da işğalı ilə nəticələndi. Cəbrayılın işğalı ilə başa çatan döyüşlərdə 180 nəfər şəhid olub. 90 nəfərə yaxın isə əsir və itkin düşüb. Cəbrayıllılar içərisində 180 nəfərə yaxın şəxs Qarabağ müharibəsi əlili statusu alıb.

Ərazisi 1050 kvadrat kilometr olan Cəbrayılın Ermənistan silahlı qüvvələri tərəfindən tutulması ilə 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 5 məscid, 2 muzey, 129 tarixi abidə, 149 mədəniyyət ocağı işğal altında qalıb. Hazırda Cəbrayıl üzrə 351 nəfər şəhid ailəsi var. Cəbrayıldan olan 61100 məcburi köçkün 58 rayonda, daha çox isə Beyləqan, İmişli, Sabirabad, Biləsuvar rayonlarında məskunlaşıb.

Cəbrayıl rayonu da qədim yaşayış məskənlərimizdən biridir və zəngin yeraltı sərvətlərə, təbii gözəlliyə malikdir. Rayonda yaşı 200-1600 olan 14 ədəd iri diametrli Şərq çinarı və digər qiymətli ağaclar, həmçinin Dağtumas kəndində “Divlər sarayı” adlanan mağara təbiət abidəsi kimi qorunurdu. Cəbrayıl rayonunda respublika və rayon əhəmiyyətli 120-dək tarixi memarlıq abidəsi, qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər, qeyri-adi flora və faunası ilə seçilən Diridağın özünəməxsus təbiət guşələri, mineral maddələrlə zəngin su mənbələri erməni işğalçıları tərəfindən dağıdılaraq məhv edilib.

Azərbaycan ordusunun ötən ilin aprel döyüşlərində erməni təxribatına layiqli cavab verərək Cəbrayıl rayonun Lələtəpə yüksəkliyini işğaldan azad etməsi Cocuq Mərcanlı kəndi də daxil olmaqla, böyük bir ərazinin erməni hərbçilərinin nəzarətindən çıxması ilə nəticələndi. 1994-cü ildə işğaldan azad edilən Cocuq Mərcanlı kəndi Lələtəpə yüksəkliyində yerləşən işğalçı erməni hərbçilərinin atəş nöqtəsi idi. Bu səbəbdən əhalinin kəndə geri qaytarılması mümkün deyildi. Lələtəpənin azad olunmasından sonra bu problem həll edildi. Prezident İlham Əliyevin sərəncamı ilə kəndin bərpası qısa müddətdə həyata keçirildi və artıq bir neçə aydır Cocuq Mərcanlıda yaşayış təmin edilib.

Bu hadisə Füzuliyə, Cəbrayıla və işğal olunmuş digər rayonlarımıza böyük qayıdışın gec-tez reallaşacağına ümid verən hadisə kimi qiymətləndirilir.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 175 (6789) 23 avqust 2017

## Putin Sərkisyanın "qulağını çəkmək üçün" bu gün görüşə çağırdı



**Ermənistan prezidenti Serj Sərkisyan avqustun 23-də Rusiya prezidenti Vladimir Putinlə görüşmək üçün Soçiyə gedəcək.**

Musavat.com bununla əlaqədar erməni mediasına istinadən xəbər verir.

Ermənistan prezidentinin mətbuat xidmətinin yaydığı məlumata görə, görüşdə ikitərəfli əməkdaşlığın əsas məsələlərindən, siyasi, iqtisadi, humanitar, mədəniyyət sahəsindəki əməkdaşlıqdan və digər məsələlərdən bəhs olunacaq.

Qeyd edək ki, S.Sərkisyanın Rusiyaya sonuncu səfəri bu ilin mart ayında baş tutmuşdu. Erməni tərəf bildirir ki, Putinlə görüşdə Avrasiya İqtisadi Birliyi və KTMT çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunacaq. Həmçinin tərəflər regional məsələlər, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi yolları ətrafında da fikir mübadiləsi aparacaqlar.

Azərbaycan prezidentinin Soçidə rusiyalı həmkarı ilə görüşməsi Ermənistanda uzun-uzadı müzakirələrə səbəb olmuşdu. Bu görüşdə Bakı ilə Moskvanın hansısa anlaşmaya gəlməsi ətrafında erməni tərəf həftələrlə müzakirələr apardı. Məhz bundan sonra Ermənistan NATO və Avropa Birliyi ilə əməkdaşlığı genişləndirmək, hətta konkret addımlar atmağa hazırlaşdığı barədə davamlı açıqlamalar verdi. Bu, günlərdə bəyan olunub ki, Avropa Birliyi ilə assosiativ sazişin imzalanması da gündəlikdədir və növbəti addım payızda atıla bilər.

Tamamilə mümkündür ki, Putin Sərkisyanın "qulağını çəkmək üçün" görüşə çağırıb.

❑ **Cavid TURAN**

## Yavər Camalov Moskvada rusiyalı nazirlə görüşdü



**Moskvada keçirilən "ARMİYA-2017" Beynəlxalq Hərbi Forumda iştirak edən müdafiə sənayesi naziri Yavər Camalov avqustun 22-də Rusiyanın sənaye və ticarət naziri Denis Manturovla görüşüb.**

Müdafiə Sənayesi Nazirliyindən virtualaz.org-a verilən məlumata görə, görüşdə iki ölkə arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## Gürcüstan prezidenti Bakıya və Ankaraya təşəkkür etdi



**Gürcüstan prezidenti Giorgi Marqvelaşvili ölkə ərazisində davam edən meşə yanğınlarının söndürülməsində göstərdikləri köməyə görə Azərbaycana və Türkiyəyə təşəkkür edib.**

Virtualaz.org-un məlumatına görə, bu barədə dövlət başçısı jurnalistlər üçün keçirdiyi brifinqdə deyib. "Mən təbii fəlakətin aradan qaldırılmasında bizə kömək edən Azərbaycan və Türkiyəyə minnətdarlığımı bildirirəm", - deyə o vurğulayıb.

Prezident qeyd edib ki, yanğının aradan qaldırılması üçün bütün dövlət resursları səfərbər edilib. O, əhaliyə müraciət edərək yaşayış məntəqələrinin təhlükə altında olmadığını diqqətə çatdırıb.

## Türkiyənin 7 generalı gözlənilmədən istefaya getdi



**Türkiyə Silahlı Qüvvələrinin 7 general və admiralı gözlənilmədən təqaüdə çıxmaqla bağlı müraciət ediblər.**

Axar.az xəbər verir ki, Türkiyə Müdafiə Nazirliyi yayıb general və admiralların öz istəkləri ilə təqaüdə getmək istədiklərini bildirib.

General və admirallar təqaüdə çıxmaqla bağlı müraciəti avqustun 18-də ediblər.



# Ekspertlərdən ermənilərin "sərhəd açılacaq" ümidini puç edən açıqlamalar

### Türkiyənin Avrasiya Birliyi və Gömrük İttifaqına daxil olması mümkündür, amma...

**Türkiyənin iqtisadiyyat naziri Nihat Zeybekçi Avrasiya İqtisadi Birliyi (AİB) ilə bağlı sensasion sayıla biləcək açıqlama verib. Nazir ölkəsinin bu qurumla anlaşma imzalamaq niyyətində olduğunu deyib. Belə ki, İzmirdə beynəlxalq yarmarkanın açılışı zamanı etdiyi çıxışında o bildirib ki, Ankara AİB-lə gömrük anlaşmasını imzalamaq barədə təklif alıb. "Ancaq elə eləmək lazımdır ki, bu, Avropa Birliyi ilə analoji sazişə mane olmasın" - Zeybekçi əlavə edib.**

Nazirin açıqlamasından sonra meydana bir sıra suallar gəlib. Ankara bu təklifi qəbul edəcəkmi? Saziş imzalansa, bu, Ermənistanla sərhədin avtomatik olaraq açılması demək olacaqmı? Sərhədin açılmasından daha çox Ermənistan, yoxsa Türkiyə qazanar? Bu hadisənin Azərbaycan-Türkiyə münasibətlərinə təsiri necə olar?

**Politoloq Şahin Cəfərli "Yeni Müsavat"a bildirdi ki, son illər Türkiyənin Avropa Birliyi ilə, ümumən Qərblə nə vaxt problemləri yaransa, bu tip bəyanatların səsləndiyini görürük:** "Daha əvvəl də dəfələrlə bu məsələ gündəmə gətirilib və müvafiq bəyanatlar verilib. Hətta ötən illərdə prezident Abdulla Gül və o zamankı baş nazir Rəcəb Tayyib Ərdoğan səviyyəsində Türkiyənin Avrasiya İttifaqının Gömrük Birliyinə, Şanxay Əməkdaşlıq Təşkilatına üzvlüyü ilə bağlı şifahi müraciətlər, çağırışlar da edilib, lakin Moskva heç vaxt bunu diqqətə almayıb".

**Ekspert qeyd etdi ki, hazırda Türkiyənin Avropa Birliyi və ABŞ-la münasibətlərində böhran dövrüdür:** "AB-nin lider ölkəsi olan Almaniya ilə münasibətlər ən gərgin mərhələsini yaşayır. Almaniya artıq AB banklarından və fondlarından Türkiyəyə maliyyə yardımları və kreditlər ayrılmasını məhdudlaşdırmaq təşəbbüsünü qaldırıb. Eyni zamanda Angela Merkel Türkiyə ilə Avropa Birliyi arasındakı Gömrük Birliyi müqaviləsinin yenilənməyəcəyini açıqlayıb. Məhz belə bir məqamda Türkiyə hökuməti qarşı tərəfə alternativsiz olmadığını nümayiş etdirmək məqsədilə yenidən köhnə kartə əl atıb. Mən bunun Qərblə masaya oturmaq üçün əlverişli siyasi zəmin formalaşdırmaq niyyətindən irəli gəldiyini düşünürəm. Türkiyə Avropa Birliyi üzvlüyünə rəsmi namizəd olan bir ölkədir və AB-yə tamhüquqlu üzvlük Ankara tərəfindən dövlətin strateji prioriteti elan edilib. Türkiyə AB ilə Gömrük Birliyinin iştirakçısıdır. Bu səbəblə Türkiyənin başqa bir gömrük sistemində iştirak etməsi mümkün deyil. Onu da nəzərə almaq lazımdır ki, hazırda Türkiyənin ən böyük ticarət tərəfdaşı Almaniyadır. 2016-cı ilin yekunlarına əsasən Almaniya Türkiyənin ixracatında 10%-lik payla (14,4 milyard dollar) ilk sırada olub. Türkiyədə təxminən 6 min alman şirkəti fəaliyyət göstərir. Almaniya həm də Türkiyəyə ən çox turist göndərən ölkədir. Ümumilikdə Türkiyənin illik ixracatının təxminən 50%-i Avropa Birliyinin payına düşür. Bu, çox böyük rəqəmdir. Hamıya aydındır ki, Türkiyə Almaniya kimi önəmli iqtisadi tərəfdaşı, eləcə də ümumilikdə Avropa bazarını əsla itirmək istəməz, çünki hazırkı dünyada bu bazarın, sadəcə olaraq, alternativi yoxdur. Sözlərimizin sübutu kimi, ötən günlərdə Türkiyədə 1 milyard dollarlıq külək enerjisi layihəsi ilə bağlı tenderin qalibi kimi Almaniyanın "Siemens" şirkətinin seçilməsini göstərmək olar. Eyni zamanda Avropa maliyyə qurumlarının da Türkiyə üçün önəmini qeyd etmək lazımdır, çünki bu qurumlar Türkiyə üçün ucuz kredit cəlb etmək üçün əlverişli mənbə rolunu oynayır. Ötən il Avropa İnvestisiya Bankı Türkiyədə dövlət və özəl sektorun yatırımlarına 1,9 milyard avro dəstək verib. 2015-ci ildə bu məbləğ 2,3 milyard avro təşkil edib. Bu il isə siyasi gərginlik səbəbilə ayrılacaq kreditlərin miqdarı azalacaq. Cari ilin ilk yarısında AİB Türkiyədən daxil olan 500 milyon avro dəyərində layihələri təsdiqləyib. Yuxarıda Türkiyə üçün Avropa bazarının alternativinin olmadığını qeyd etdik, Qərb maliyyə institutları da bu baxımdan alternativsizdir. Rusiyanın bu imkanları yoxdur. Çin müəyyən maliyyə ehtiyatlarına sahibdir, lakin bu ölkənin prioriteti özünün iri infrastruktur layihələrini maliyyələşdirməkdən ibarətdir və Pekinin xaricə ucuz kreditlər vermək kimi bir praktikası yoxdur. Yeri gəlmişkən, Çinin Avropa bazarına öz məhsulunu çıxarmaq üçün necə nəhəng infrastruktur layihələri gerçəkləşdirməyə çalışdığını görürük, bunu özü də bir daha Avropa bazarının strateji əhəmiyyətini göstərir".

**Ş.Cəfərlinin sözlərinə görə, digər önəmli məsələ bundan ibarətdir ki, Türkiyə Ermənistanla eyni geosiyasi və geoiqtisadi məkanda təmsil oluna bilməz:** "Türkiyənin istər Avrasiya İttifaqına, istərsə də onun Gömrük İttifaqına qoşulması üçün Ermənistanın icazəsi tələb olunacaq. Ermənistanın isə qeyd-şərtsiz buna razılıq verməsi mümkün deyil. İrəvan tələb edəcək ki, əvvəla, Türkiyə onunla birbaşa diplomatik əlaqə qursun və paytaxtlarda qarşılıqlı olaraq səfirliklər yaradılsın, ikincisi də, iki ölkə arasında sərhədlər açılsın. Bəziləri deyə bilər ki, Rusiya müvafiq qərar qəbul etdikdən sonra Ermənistan kimdir ki, anlaşmanı pozsun və şərt irəli sürsün? Razıyam, lakin məsələ burasındadır ki, Avrasiya İttifaqının və onun Gömrük İttifaqının şərtlərinin özü açıq sərhədlər, qarşılıqlı əlaqələr və kooperasiya tələb edir. Bu qurumlarda təmsil olunan ölkələrin ərazisi vahid iqtisadi məkan, ümumi bazar sayılır. Əgər sərhədlər, gömrüklər bağlıdırsa, birbaşa gediş-gəliş və ticarət yoxdursa, hansı iqtisadi və gömrük ittifaqından söhbət gedə bilər? Ümumiyyətlə, bir ölkə digərini tam olaraq tanımırsa və onun paytaxtında səfirlik yaratmırsa, onlar necə eyni ittifaqda təmsil olunacaq? Bu, nonsensdir. Əlbəttə, nəzəri cəhətdən mümkündür ki, Türkiyə Ermənistanla siyasi-iqtisadi əlaqələrini tam bərpa etsin, sərhədləri açsın. Bu, artıq Türkiyənin regional siyasətində radikal dəyişiklik və tamamilə yeni situasiyanın yaranması demək olar. Belə olan halda Azərbaycanla münasibətlərdə hansı problemlərin yarana biləcəyini isə söyləməyə ehtiyac yoxdur. Mən Türkiyənin bu riskə getməyəcəyinə inanıram".

Ekspertin fikrincə, bütün bu qeyd edilənlər onu göstərir ki, Türkiyənin Avropadan, Qərbdən qoparaq üzünü şərqə çevirməsi ən azı hazırkı mərhələdə mümkün deyil.

**Politoloq Elşən Mustafayev də bildirdi ki, Avrasiya İttifaqına, Gömrük İttifaqına daxil olmaq istəkləri ilə bağlı Türkiyə rəsmiləri tərəfindən verilən açıqlamalar ilk dəfə deyil:** "Hesab edirəm ki, bu, Qərb və Rusiya arasında siyasi manevr xarakteri daşıyan açıqlamalardır. Türkiyə gözəl anlayır ki, Avropa Birliyi ilə analoji sazişlə Gömrük İttifaqı sazişinin eyni zamanda olması mümkün deyil. Bu, ilk olaraq Rusiya üçün qəbulolunmazdır. Eyni zamanda oraya üzv olandan sonra Ermənistanla sərhəd açılımından başlamış Azərbaycanla münasibətlərin soyumasına qədər iki qardaş ölkə arasında hadisələr cərəyan edə bilər. Türkiyə rəsmilərinin "Elə eləmək lazımdır bu, Avropa Birliyi ilə analoji sazişə mane olmasın" bəyanatları o anlama gəlir ki, Gömrük İttifaqı ilə hər hansı saziş imzalanması mümkünsüzdür. Amma bu, o demək deyil ki, Türkiyə hökumətinin içində Rusiyanın yaratdığı Gömrük İttifaqına qoşulmaq istəyənlər yoxdur. Əgər həm Avropa İttifaqı, həm də Gömrük İttifaqı ilə eyni vaxtda analoji sazişin olması mümkün olsaydı, həmin qüvvələr bunun təbliğatını daha geniş aparardılar. Bu isə mümkün deyil. Seçim qarşısında qalanda tərəzinin gözündə Avropa İttifaqı Türkiyə üçün daha ağır gəlir. Türkiyə Avropa İttifaqı ilə aralarında zaman-zaman yaranan siyasi mübahisələrə, anlaşılmazlıqlara baxmayaraq, onlarla münasibətləri kökündən kəsməyin marağında deyil".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 175 (6789) 23 avqust 2017

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin sabiq şefi Eldar Mahmudovun rəhbərliyi altında 11 il fəaliyyət göstərən, hazırda ən müxtəlif ağır cinayətlərin törədilməsi ittihamı ilə məhkəmə qarşısına çıxarılan generallarının, şöbə rəislərinin və istintaqçıların işləri üzrə məhkəmə prosesləri yekunlaşmaq üzrədir. Gözlənilənlərin əksinə olaraq, baş tutan məhkəmə proseslərində ortaya çıxan yeni faktlar üzrə araşdırmalar aparılmır, müvafiq olaraq həbslər də gerçəkləşmir.**

# Eldar Mahmudovu Nardaranda saxlayan səbəb

## "MTN işi" yekunlaşır, bütün suallara cavab verməli olan sabiq nazir isə ortaya çıxarılmır

Yada salaq ki, hazırda Sabunçu Rayon Məhkəməsində "MTN işi" üzrə 2 dəstənin işinə dair proses keçirilir. MTN Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov, onunla birlikdə həbs edilən 4 MTN əməkdaşının və digər dəstənin - MTN-in Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev, Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov, Əməliyyat-texniki idarəsinin rəisi, general-mayor Natəvan Mürvətova, həmin qurumun digər vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun cinayət işi üzrə məhkəmə prosesləri sona çatmaq üzrədir. Prosesləri izləyənlər ümumilikdə təqsirləndirilənlərə qarşı loyallıq olduğunu hiss edirlər. Belə görünür ki, Eldar Mahmudov vəzifədən çıxarılandan sonra dövriyyəyə buraxılan "baş nazir gətirilir" iddiası da əbəs deyilmiş. Bu yolla sabiq nazir özünə qarşı hücumları dəf etməyə, yenidən vəzifəyə qayıdacağı məsajını ona düşmən mövqedə dayananlara çatdırmaq, özünü mümkün hücumlardan sığortalamaq istəyib. Hazırda Eldar Mahmudovun statusu da bilinmir. Onun təqsirləndirilən şəxs, heç yerə getməmək haqda iltizam vermiş şəxs, girov müqabilində istintaqdan kənarda qalmış şəxs olub-olmaması haqda bilgi yoxdur. Bilinən odur ki, E.Mahmudov vəzifəsindən çıxarılandan sonra yaşayış ünvanını Badamdar qəsəbəsindəki imarətindən Nardaran qəsəbəsi ərazisindəki xüsusi iqamətgahına dəyişib. Qeyd edək ki, 2015-ci il oktyabrın 17-də Eldar Mahmudov vəzifəsindən çıxarılandan 1 ay 1 həftə sonra Nardaranda genişmiqyaslı əməliyyat həyata keçirilib. Əməliyyat zamanı bir neçə yerli sakin öldürülüb, ümumilikdə 45 qəsəbə sakini həbs edilib. Qəsəbə 2015-ci ilin noyabrından bu günə qədər nəzarət altındadır. Mahmudovun nəzarət altında olan qəsəbədəki iqamətgahını yaşayış yeri kimi seçməsi də bu baxımdan təsadüfi deyil. Onun Badamdardan savayı respublikanın bir çox səfalı yerlərində be-



lə imarətlərinin olması haqda xəbərlər var. Bu halda E.Mahmudovun niyə məhz nəzarət altında olan Nardaran qəsəbəsini özünə yaşayış yeri seçməsi təsadüfi görünmür. Mümkündür ki, onun məhz Nardaranda məskunlaşması özünün istəyi ilə olmayıb. Qəsəbənin xüsusi nəzarət altında saxlanması sabiq nazirin hərəkət trayektoriyasına nəzarəti yüngülləşdirməsi baxımından əlverişlidir. Digər tərəfdən isə olduqca məxfi sirlər daşıyıcısı olan E.Mahmudovun təhlükəsizliyinin təmin edilməsi üçün geniş imkanlar yaradır. Bu baxımdan, sabiq nazirin yaşamaq üçün Nardarana getməsini təsadüfi hesab etmək olmaz. Mümkündür ki, onu nəzarət altında olan kəndə göndəriblər. Eldar Mahmudovun 11 illik nazirliyi dövründə qanuni-qanunsuz fəaliyyəti ilə əlaqəli onun düşmənlərinin siyahısı da uzundur. İş adamları, müxtəlif vəzifə sahibləri ilə yanaşı, xarici dövlətlərin xüsusi xidmət orqanları da sabiq nazirlə haqq-hesab çəkmək üçün məqam axtarırlar. E.Mahmudov kreslosunun verdiyi imkanlardan istifadə etməklə, xüsusi dinləmə avadanlıqları vasitəsilə bir çox qüdrətli dövlət məmurlarının, onların ətrafındakı iri iş adamlarının şəxsi informasiyalarına çıxış əldə edib. Bir çoxlarının illərlə talanla, bəzi iş adamlarının isə alın təri ilə topladığı mal-varlarını qısa müddətdə əllərindən alıb. Malını bu şəkildə itirmişlərin qisası isə ağır olur. Odur ki, hərənin sabiq nazirlə haqq-hesab çəkmək üçün bir səbəbi var. Bu baxımdan, istisna deyil ki, sabiq nazirə qarşı mümkün hücumların qarşısını almaq üçün onun Nardarandakı iqamətgahında qalmasına razılıq veriblər.

Hazırda yekunlaşmaqda olan proseslərdə ara-sıra Eldar Mahmudovun adı çəkilir, zərərçəkənlər onun da prosesə cəlb olunmasını, dindirilməsini, həbsini tələb edirlər. Onların bu tələbi isə eşidilmir. Baş prokurorun ötən ilin oktyabrında söylədiyi "İstintaqın nəticəsində hansı şəxslər cinayət məsuliyyətinə cəlb olunmalıdırlarsa, onlar da məsuliyyətdən kənarda qalmayacaq" fikrinə rəğmən sabiq nazirin statusu belə bu gün bilinmir.

❑ E.MƏMMƏDƏLİYEV



# Vitse-prezidentlər istənilən vaxt təyin edilə bilər

## Təyinatlar niyə olmadı?

**2016-cı ilin 26 sentyabrında keçirilən referendumda Azərbaycan Konstitusiyasına edilən əlavələrdən biri də dövlət idarəetməsində birinci vitse-prezident və vitse-prezidentlik institutunun tətbiqidir. 2017-ci il fevralın 21-də Azərbaycan prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanı respublikanın 1-ci vitse-prezidenti təyin edib. Bu təyinatdan keçən müddətdə 1-ci vitse-prezidentin köməkçiləri təyin edilib, katibliyi formalaşdırılıb. Bir sözlə, 1-ci vitse-prezident institutu ciddi işlək mexanizmə çevrilib.**

Maraqlıdır ki, konstitusiya dəyişikliyindən 11 aya yaxın vaxt keçməyinə baxmayaraq vitse-prezidentlərin təyinatı hələ ki baş verməyib.

Milli Məclisin üzvü, BQP sədri Fazil Mustafa "Yeni Müsavat"a bildirib ki, vitse-prezidentlərin təyinatının hələ həyata keçirilməməyi qanun pozuntusu deyil. Çünki konstitusiyada dəyişiklikdən sonra vitse-prezidentlərin dərhal təyin edilməsi tələbi qanunda əksini tapmayıb. Qanunda bu təyinatların həyata keçirilməsi üçün konkret vaxt da qoyulmayıb: "Qanunda konkret tələb qoyulmayıb ki, dəqiq filan vaxtda və ya filan vaxta qədər bu təyinatlar həyata keçirilməlidir. Prezidentin səlahiyyətindədir ki, istədiyi vaxt təyinat həyata keçirsin. Ona görə də təyinatların hələ reallaşmaması qanun pozuntusu deyil. 1-ci vitse-prezident təyinatı həyata keçirilib və bu institut fəaliyyət göstərir. Vitse-prezidentlərin nə zaman təyin ediləcəyi də ölkə başçısının səlahiyyətinə aid olan məsələdir. Təyinatın gecikməsindən danışmaq üçün qanuni əsas yoxdur. Müəyyən əsasnamələrin hazırlanması, bu vəzifədə olan şəxslərin müəyyən statuslarının dəqiqləşdirilməsi, sənədləşdirilməsi vaxt aparan işlərdir. Hər halda, bu məsələlərin həllindən sonra vitse-prezidentlərin təyinatı məsələsinin üzərinə gəlinəcək. Çünki dəqiq səlahiyyətlər bölgüsü aparılmalıdır ki, məsələn, bilsin ki, baş nazirin səlahiyyətləri nədir, vitse-prezidentlərin səlahiyyətləri nədir. Səlahiyyət bölgüsü aparılmasa, müəyyən prosedur və idarəetmə problemləri yarada bilər. Bu məsələlər həllini tapandan sonra prezident istənilən vaxt vitse-prezidentlər təyin eləyə bilər".

❑ Etibar SEYİDAĞA

# Trampın ətrafı gedir, bəs özü?

## Elçin Mirzəbəyli: "Onun istefa verəcəyi, yaxud impiçment olunacağı indiki şəraitdə az inandırıcı görünür"

Amerika prezidenti Donald Trampın Ağ Evin sahibi olandan sonra formalaşdırdığı hökumət komandası artıq dağılmaq üzrədir. Son olaraq, Tramp qələbəsində əsas rol oynayan baş strateqi Stiv Bennonu vəzifəsindən azad etməsi ABŞ prezidenti ətrafındakı müzakirələri birə-on qat artırıb.

Ağ Ev sahibinin prezidentlik kürsüsündə çox qalmayacağı, tezliklə onu vitse-prezident Maykl Pensin əvəzləyəcəyi ilə bağlı fikirlər durmadan artır. Amerika qanunvericiliyinə görə, prezident vəzifəsindən gedərsə, onu ikinci şəxs kimi vitse-prezident prezidentlik müddətinin sonuna qədər əvəz edir. Ekspertlər nə Amerika cəmiyyətinin, nə də dünyanın Tramp kimi bir biznesmenin prezidentliyini qəbul edə bilmədiklərini qeyd edirlər. Məhz bu səbəbdən vəzifəsinin icrasına başladığı son 7 ayda Ağ Ev sahibinin dünya gündəminin əsas şəxslərin birinə çevrildiyi bildirilir. Onun komandasında heç kəsə inanmadığı və bu səbəbdən qələbəsinin əsas memarı sayılan Stiv Bennonu qovduğu deyilir. Bu gedişlə Trampın impiçmentlə üzləşən ABŞ prezidenti kimi tarixə keçəcəyi vurğulanır.

**Politoloq Elçin Mirzəbəyli Trampı ABŞ tarixi üçün bir ilk adlandırdı:** "Ötən müddət ərzində gələ bildiyim yeganə qənaət odur ki, ABŞ-ın siyasi sistemi Trampın prezidentliyini hələlik həzm edə bilmir. Tramp yeganə ABŞ prezidentidir ki, seçildiyi gündən ətrafında qalmaqal səngimir. Əslində bu da gözlənilən idi. Keçirilən son sorğular Trampın impiçmentini istəyənlərin sayının artdığını göstərir. ABŞ prezidentinin Virciniya ştatında baş verən qarşıdurmalarda iştirak edən sağ radikalları və ağdərili neomillətçiləri dəstəkləməsi, daha doğrusu, "onların arasında çox yaxşı adamlar var" deməsi də ona qarşı ittihamları daha da şiddətləndirib. Demokratlar məhz Trampın bu çıxışına istinad edərək, impiçment məsələsini gündəmə gətirmək istəyirlər. Birləşmiş Ştatların nüfuzlu analitiki Eleyn Kamarka görə, Trampın impiçmenti üçün Senatda cəmi 6 səs çatışmır. Analitik hesab edir ki, respublikaçı senatorlardan 12-si Trampın impiçmentini dəstəkləyə



bilər. ABŞ qanunvericiliyinə görə, impiçmentin lehinə öncə Konqresin aşağı palatasında səs verilməlidir. Bundan sonra isə 100 senatordan ən azı 2/3-i impiçmentin lehinə səs verməlidir. Hazırda yuxarı palatada 48 senator demokratları təmsil edir. Bunun üzərinə Makkeynin rəhbərli etdiyi 12 "qiyamçı" respublikaçı senatorda əlavə olunarsa, Tramp əleyhidarlarının sayı 60 nəfər edir. Nəticə əldə etmək üçünsə minimum 66 səsə ehtiyac var. Təbii ki, bütün bunlar ehtimallardır və reallaşması da kifayət qədər çətindir. Trampın komandasına gəldikdə isə onun faktiki olaraq siyasi komandası yoxdur. Tramp biznesdə olduğu kimi siyasətdə də "muzdlu"larla işləməyə üstünlük verir. Tramp üçün təhlükə yarada bilənlər təkcə demokratlar və "qiyamçı respublikaçılar" deyil, onun komandasının sabiq üzvləri də çox güman ki, yaxın dövrlərdə fəallaşacaqlar. Onların arasında ən təhlükəlisi Ağ Evin sabiq baş strateqi Stiven Bennondu. Bennon ölkənin informasiya məkanında güclü təsirə malik olan fiqurdur və o siyasi proseslərdə aktivlik nümayiş etdirərsə, bu zaman Tramp əleyhinə kampaniya indikindən qat-qat çox genişlənə bilər. Bundan başqa, Tramp əleyhidarları onun istefaya göndərilməsi üçün ABŞ Konstitusiyasına 25-ci düzəlişin 4-cü müddəasının tətbiq oluna biləcəyini deyirlər. Bu müddəya görə, vitse-prezident və mərkəzi icra hakimiyyəti orqanında təmsil olunanların əksəriyyəti əgər "prezidentin öz səlahiyyətlərini icra edə bilmədiyi" ilə bağlı Konqresə və Senata müraciət edərlərsə, o zaman impiçment məsələsi birbaşa hər iki palatanın müzakirəsinə çıxarıla bilər".

**Politoloq dedi ki, Trampın istefa verəcəyi, yaxud impiçment olunacağı indiki şəraitdə az inandırıcı görünür:** "Əgər bu baş verərsə belə, onun səlahiyyətlərini Pens icra edəcək və qanunvericiliyə əsasən yeni vitse-prezident təyin olunacaq. Pens isə kifayət qədər təcrübəli siyasətçidir. O, Trampın baxışlarının müəyyən bir hissəsini bölüşsə də daha praqmatikdir. Bu baxımdan, Trampın getməsi ilə dünyada heç nə dəyişməyəcək".

❑ Cavanşir ABBASLI



# Etibarnaməyə etibar etməyin!

Elşad MƏMMƏDLİ
elshad1978@gmail.com

**Biz azərbaycanlıların dünya xalqlarında rast gəlinməyən bir sıra keyfiyyətləri, fərqli xüsusiyyətləri, bacarıqları var. Onlardan biri də ən son, ən müasir avadanlıqları kustar üsulla "yeniləyə" bilməkdir. Məsələn, biz hətta yapon, alman istehsalı olan kompüteri, cihazı barmaq edib elə hala salırıq ki, öz proqramı üzrə deyil, məhz özümüz istədiyimiz şəkildə çalışır. Bir nümunə göstərim: Almaniya istehsalı olan son model "Mercedes"lərdə manevəyə yaxınlaşanda avtomatik tormozlanma sistemi var. Əksər azərbaycanlı sürücülər bu model maşına sahiblənən kimi, birinci onun beynindən həmin sistemi ayırırlar. Çünki bizə manevr etməyə, bir balaca sıxlıq olanda sağdan-soldan keçib getməyə imkan vermir, qəza şəraitini özü nəzərə alıb tormozlayır və biz forsaj verib, şəhərin ortasında 5 saniyəyə 100 sürət yığa bilmirik.**

Yaxud da evlərimizə smart tipli qaz, su, işıq sayğacı quraşdırılır. Bir çox ifrat "savadlı", "barmaqeləmə" üzrə çempionlarımız həmin sayğacı geriyə fırlatma mexanizmi düzüb-qoşurlar. Buna görə hətta həbsə düşən, yüksək cərimə ödəyən vətəndaşlarımız da var.

Fərqli bacarıqlarımız təkcə texnika ilə bağlı deyil. Biz hüquq sahəsində də dünyaya meydan oxuya bilirik. Məsələn, əksər insanlarımız bir sıra əməliyyatlar həyata keçirərkən, ev, avtomobil alarkən hüquqi prosedurlara əməl etməyi deyil, qanunun yanından keçib getməyi üstün tuturlar. Birini deyim, uzun illər qabaq bir dəb düşdü ölkədə; avtomobili baş etibarnamə adlı, əslində heç bir etibarı olmayan sənədlə almaq. Bu, elə bir hala gəlib çıxdı ki, ölkədə vətəndaşlar faktiki olaraq öz maşınını deyil, hər kəs bir başqasının avtomobilini sürürdü. Bir də görürdün bir avtomobilə 8-10 etibarnamə verib. Bu səbəbdən yol hərəkəti pozuntularına dair cərimələr də fərqli adamlara gedib çıxırdı.

Hökumət bu problemləri aradan qaldırmaq üçün çox mühüm bir addım atdı. Artıq bir neçə ildir ki, baş etibarnamə deyilən sənədi 1 ildən artıq müddətə vermirlər. Bu, ona hesablanmışdı ki, insanlar ildə bir dəfə küçələrə düşüb maşının sahibini axtarmalı olduğunu düşünərək, elə bəri başdan avtomobil alanda öz adına rəsmiləşdirsin. Bununla həm vətəndaş gələcəkdə problemlə üzləşməyəcək, həm DYP əməkdaşları 5-6 etibarnamədən hansı birinə radar cəriməsi yazılmalı olduğu dilemması qarşısında qalmayacaq və s. Amma yenə əksər insanlarımız avtomobili bu bir illik etibarnamə ilə alır. Buna da artıq çarə tapıblar. Məsələn, Əhməd Məmmədlidən aldığı etibarnamənin bitməsinə 2 gün qalmış əmisi oğlu Nurəhmədə etibarnamə verir. Nurəhməd də Əhmədə sürücülük etibarnaməsi verir, beləcə proses ilbəil bu şəkildə davam edir.

Bəs nəticə nə olur? O olur ki, hazırda ölkə üzrə 10 minlərlə adam məhkəmələrin, məhkəmə icra şöbələrinin qapısında qalıb! Minlərlə adam hətta 5-10 min manat verib aldığı, amma adına rəsmiləşdirmədiyi avtomobili itirib! Necəsini aşağıda elə öz başımıza gələn hadisənin fonunda izah edim.

Əvvəla, onu deyim ki, insanların böyük bir faizinin etibarsız, bir xeyli hissəsinin də "görüm kimə atıb qabağa düşürəm" prinsipinə söykənmiş olduğu cəmiyyətdə ümumiyyətlə ETİBARNAMƏ söhbətini unudun! Etibarnamə ilə bir yaxın qohumum 8 il öncə 2029-cu ilədək hüquqi qüvvədə olan etibarnamə ilə avtomobil alıb. İndi xəstəsi var, satmaq istəyir. Məlum olur ki, bizim qohumun maşını aldığı adam da kimdənsə, daha dəqiqi, Qarayev Tərlan adlı birindən etibarnamə ilə alıbmış həmin avtomobili. Ardınca görün nolub: Tərlan rəsmən dələduzun biri imiş. Azı 6 adama pul atıb və barəsində dələduzluqla bağlı 6 məhkəmə qərarı var. Vurduğu ziyanları, borclarını qaytarmaq üçün də onun əmlaklarına məhdudiyyət qoyulub, o cümlədən bizim qohumun da etibarnamə ilə sürdüyü maşına. İndi qohum qalıb Tərlanın zibillərinin içərisində. Düzdür, hüquq imkan verir ki, o, həmin maşını 5 ildən artıq istifadə etdiyi üçün həbsdən məhkəmə qərarı, yaxud da digər hüquqi prosedurlarla çıxarsın, öz mülkiyyətinə keçirsin. Amma bunun üçün azı 2 hörmətli dosta, 1 vəkilə, bir neçə məmura ağız açmaq zorunda qalıb ki, haqlı olduğunu sübut edə bilsin!

Bəli, əvvəllər avtomobili öz adına keçirmək üçün müəyyən qeyri-rəsmi ödənişlər də tələb edilirdi. Amma bu gün bu yoxdur və rəsmi rüsumla - təxminən iki etibarnamə rüsumu qədər vəsait ödəməklə avtomobili öz adınıza rahatlıqla keçirə bilərsiniz. Tənbəllik etməyin, 30-40 manatdan ötrü qırx arşın quyunun dibinə salmayın özünüzü. Yoxsa bizim qohumun gününə düşəcəksiniz, qalacaqsınız yollarda və əsəb içində boğula-boğula.

# Partiya sədri müxalifəti Qurana and içdirməyi təklif edir

## Müxalif düşərgə 2018-ci il seçkilərinə hansı formada qatılmaqla bağlı fikir ayrılığı yaşayır

**2018-ci il Azərbaycanda prezident seçkilərinin keçirilməsi nəzərdə tutulub. Bu, Azərbaycan Respublikası Prezidenti postuna keçirilməsi nəzərdə tutulan 8-ci rəsmi ümumilli seçki olacaq. Bəs ölkənin müxalifət partiyaları bu seçkilərə necə hazırlaşırlar? Onlar seçkilərdə bu dəfə də vahid namizədlə çıxış edəcəklərmi?**

Suallara cavabı elə siyasi partiyaların funksionerlərindən aldıq. Öyrəndik ki, yay fəslində böyük durğunluq içərisində olan müxalifət partiyaları artıq hərəkətlənməyə başlayıblar.

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev "Yeni Müsavat"a bildirdi ki, müxalifət seçkilərə birgə qatılmağın yollarını axtarmalıdır:** "Çünki çox asan nəzəri hesablama göstərir ki, hakimiyyətin illər ərzində nəzarəti altına aldığı kadr, beynəlxalq güc daha üstündür. Bizim yeganə resursumuz bu hakimiyyətin idarəçilikdən uzaqlaşdırılmasını istəyən narazı elektoratdır. Bu baxımdan, müxalifət də narazı elektoratın birləşməsinə nail olmağın yollarını axtarmalıdır. Hesab edirəm ki, bu yolda illər ərzində olub keçmiş narazılıqları kənara qoymaq gərəkdir. Siyasi mühitə aid olmayan, şərti bir şəxsin namizədliyi ətrafında prinsiplər zəminində təşkilatlanmaq zəruri məsələdir. Bir beynəlxalq tədbirdə də təklif etmişdim ki, kiminsə satqınlıq etməməsi, üzərinə götürdüyü vədlərə əməl etməsi üçün çox asan yoldan istifadə etmək lazımdır. Rəsmi müqavilə və ya hansısa bir şərtlərlə, hətta Qurana əl basmaqla da müxalifət liderlərini ictimai qaydada ola biləcək satqınlıqdan çəkindirmək kimi prosedurları həyata keçirmək olar. Bu yolla müxalifət liderlərini bir araya gətirmək lazımdır. Bizim resurslarımız qeyri-bərabərdir. Dediklərimdən əlavə komissiyalar da hakimiyyətin nəzarətindədir və beynəlxalq güc də bu komandanın getməsini istəmir. Xalqa istinad edib, vəziyyəti dəyişə bilərik. Düşünürəm ki, bu, bizim yeganə şans variantımızdır. Partiya daxili məsələlərə gəlincə isə biz yeganə partiyayıq ki, ali qurumumuzda növbəti seçkilərə öz namizədimizi müəyyənləşdirmişik. Ali Məclisimizin toplantısında bunu etmişik və bu o deməkdir ki, qərarımız dəyişməzdir. Eyni zamanda qeyd etmişik ki, əgər müxalifətin uğur formatı ərsəyə gələrsə, o zaman qərarımıza yenidən baxmaq səlahiyyətini özümüzdə saxlayırıq. İstəyirik ki, müxalifət hakimiyyəti dəyişə bilsin. Əgər müxalifət təşkilatlana bilməsə, o zaman təbii ki, epizotik uğurlar uğrunda mübarizə aparmaq məcburiyyətində qalacağıq".

**AĞ Partiyanın sədri Tural Abbaslı söyləyib ki, hazırda partiyada ənənəvi işlərini davam etdirirlər:** "2018-ci il prezident seçkiləri keçirilərsə, əsas hədəflərimizdən biri seçkilərə qatılmaq və iştirak üçün lazım olan işlərin görülməsidir. Seçkilər ərəfəsində böyük bir prosedur var. Bura istər namizədliyin qeydə alınması, istər imzaların toplanması, rəsmi sənədlərin hazırlanması və digərləri daxildir. Əgər qeydiyyata alınarsaq, bundan sonrakı dövrdə müvafiq addımlarımızı atacağıq. Məsələn, təbliğat, təşviqat materialları, cəmiyyətə ötürülməli olan mesajlar kimi hədəf və planlarımız var. Müzakirələr aparıb, bu istiqamətdə ilkin işləri görürük. 2018-ci ili seçki ili kimi dəyərləndirib, hazırlaşırıq. Fərq budur. Digər bütün işlərimiz də hər il olduğu kimi davam edir".



**Vətəndaş Həmrəyliyi Partiyasının Mərkəzi İcra Aparatının sədri Samir Əsədli də bildirib ki, 2018-ci ilə hələ xeyli müddət qalıb. Ona görə də partiyanın tam olaraq fəaliyyət planı təsdiq edilməyib:**"Biz bu ilin sonunda qurultay keçirəcəyik. Qurultayda növbəti 2018-ci il üçün fəaliyyət proqramı yəqin ki, açıqlanacaq. Təbii ki, 2018-ci ildə ölkə üçün əhəmiyyətli olan prezident seçkiləri keçiriləcək. Biz də partiya olaraq seçkilərlə bağlı öz mövqeyimizi ictimaiyyətə açıqlayacağıq".

**Klassik Xalq Cəbhəsi Partiyasının sədr müavini Xəzər Teyyublu hesab edir ki, bu məsələ partiya daxilində hələ ki müzakirə edilmir:** "Əlbəttə ki, siyasi partiyaların birlikdə mövqeyi daha üstündür. Mən özüm AXC üzvü olmuşam, hərəkatçıyam. Hesab edirəm ki, vahid namizədlə seçkini uğurla başa çatdırmaq mümkündür. Ancaq indiki vəziyyətə bu, real görünmür. Çünki bu barədə heç müzakirələr də aparılmır. Düşünürəm ki, birlik şəklində sərgilənən vahid mövqe hər bir haldan üstündür".

**Ümid Partiyasının sədr müavini Tamilla Qulami "Yeni Müsavat"a bildirdi ki, seçkilərlə bağlı hələ ki konkret qərarları yoxdur:** "Hazırda partiya olaraq bizim əsas işimiz təşkilatlanmaqdan ibarətdir. Rayon təşkilatlarımız hal-hazırda konfranslar keçirirlər. Eyni zamanda artıq yay tətilində olan gənclərimiz də istirahətdən qayıdıblar və partiyada seçkilərə hazırlıq gedir. Gənclərimiz var ki, onlar parlament seçkilərinə belə hazırlaşırlar. 2018-ci ildə prezident seçkilərinin keçirilməməsi ilə bağlı da şayiələr gəzməkdədir. Partiyada hər həftə sonu müavinlərin də iştirakı ilə dəyirmi masalar keçirilir. Eyni zamanda növbəti həftələrdə nəzərdə tutulan fəaliyyət planı ilə bağlı da müzakirələr aparırıq. Seçkilər ərəfəsində qurultayımız keçiriləcək və namizədimiz İqbal Ağazadə olacaq. Həmçinin 2017-2018-ci il üçün yol xəritəsi planımız da hazırlanır. Konfranslar, regional müşavirələrimiz başa çatdıqdan sonra bununla bağlı tam qərar veriləcək".

**Əli RAİS**

# Nazir təyinatı təkzib olunan polis general-mayoru kimdir?



Rafiq Abbasov

**Naxçıvanın daxili işlər naziri Əhməd Əhmədov vəzifəsindən uzaqlaşdırılandan bəri onun postuna təyinat olmayıb. Bir neçə gün əvvəl polis general-mayoru Rafiq Abbasovun Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri vəzifəsinə təyinatı haqda məlumat yayılmışdı. Az keçmədi ki, həmin məlumat rəsmi qaydada təkzib olundu. Buna baxmayaraq, R.Abbasovun personasına diqqət artıb. Qeyd edək ki, Naxçıvan rəhbərliyindəki mənbəyə istinadən yayılan məlumatda Rafiq Abbasovun Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri vəzifəsinə təyin olunduğu bildirilsə də, Azərbaycan DİN bu məlumatı rəsmi şəkildə təkzib etdi.**

Kimdir R.Abbasov?

Polis general-mayoru R.Abbasov hazırda Azərbaycan DİN-in Baş Kadrlar İdarəsinə rəhbərlik edir. Bundan əvvəl isə Bakı Şəhər Baş Polis İdarəsinin rəisi vəzifəsində çalışıb.

Abbasov Rafiq Qoşunəli oğlu 1960-cı ildə Şahbuz rayonunun Mahmudoba kəndində anadan olub. 1988-ci ildə Moskva Ümumittifaq Maliyyə-İqtisad İnstitutunu, 1996-cı ildə Rusiya Federasiyası DİN-in Hüquq İnstitutunu bitirib. 1979-1981-ci illərdə Silahlı Qüvvələrin sıralarında həqiqi hərbi xidmət keçib. 1985-ci ildən daxili işlər orqanlarında xidmət edir, ictimai təhlükəsizlik strukturunda müxtəlif vəzifələrdə işləyib. 1996-2001-ci illərdə Sumqayıt ŞPİ-nin rəis müavini, 2001-2002-ci illər ərzində Bakı şəhər Binəqədi RPİ-nin rəis müavini, 2002-2004-cü illərdə Zaqatala RPŞ-nin, 2004-2006-cı illərdə Lənkəran ŞRPŞ-nin rəisi, 2006-2007-ci illərdə DİN-in İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin rəisi, 2007-2014-cü illərdə isə Bakı Şəhər Baş Polis İdarəsinin rəisi vəzifələrində çalışıb. 2014-cü ilin noyabrından Daxili İşlər Nazirliyi Baş Kadrlar İdarəsinin rəisi vəzifəsini tutub. Azərbaycan Respublikası Prezidentinin 30 iyun 2006-cı il tarixli 1545 nömrəli sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunub. 28 dekabr 2007-ci ildə isə polis general-mayoru xüsusi rütbəsi verilib. Ailəlidir, iki övladı var.

**E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 175 (6789) 23 avqust 2017

**Barselonada baş verən terror hadisəsindən sonra Avropanın müxtəlif bölgələrində bir-birinin ardınca terror xəbərləri yayılmaqdadır. Əksər Avropa ölkələri terror xəbərdarlıqlarına qarşı təhlükəsizlik tədbirlərini gücləndiriblər.**

# İŞİD-in qisası-Avropa terror təhdidi altında




## Elxan Şahinoğlu: "İŞİD-in fəaliyyət dairəsi getdikcə daralır və bunun qisasını Avropada tərəfdarlarının vasitəsilə həmin ölkələrdən almağa çalışır"

Terroristlərin əksəriyyətinin ərəb kökənli olması və müsəlman xalqların nümayəndəsi olması Avropa cəmiyyətinin düşüncəsində İslam dinini və müsəlmanları da töhmət altında qoyur. Bəs görəsən, bütün bunların fonunda Avropada yaşayan müsəmanları, xüsusən də miqrantları nə gözləyir?

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Elxan Şahinoğlu bildirdi ki, son hadisələr Avropadakı təhlükəsizlik tədbirlərinin və qaydaların daha da sərtləşməsinə səbəb olacaq:** "Son zamanlar Avropa Birliyi ölkələri viza məsələsində sərt qərarlar qəbul edirdi. Artıq miqrantları da çox asanlıqla qəbul etmirlər, yoxlamadan keçirirlər. Amma indi bu hadisələrdən sonra bu prosedurlar daha çox sərtləşəcək. Bu terror hadisələrini törədənlərin bir qismi miqrant deyil. Mənşəcə ərəb olsalar da həmin ölkələrin vətəndaşlarıdır. Vaxtilə valideynləri Fransaya, İspaniyaya, Almaniyaya köçüblər, onlar da orada doğulublar. Yəni Avropa Birliyi ölkələrinin pasportlarını gəzdirirlər. Onlara qarşı mübarizə aparmaq daha çətindir. Miqrantı ölkədən deport etmək olar, ancaq öz vətəndaşına qarşı bu cür üsullar keçməyəcək. Barselonada yaşanan terror aktını da götürsək, görərik ki, bu aktı planlaşdıranlar və həyata keçirənlər elə İspaniya vətəndaşları olublar, sadəcə, mənşəcə Afrika və ərəb ölkələrindən olan insanlardır. Ona görə də qaydaları nə qədər sərtləşdirsələr də həmin ölkənin pasportunu daşıyanlara qarşı sərt tədbirlər həyata keçirmək çox çətindir".



**Politoloq terror aksiyalarının sayının artmasını Suriya və İraqda baş verən hadisələrlə əlaqələndirdi:** "Çünki İŞİD-in fəaliyyət dairəsi getdikcə daralır, İraq və Suriyada mövqeləri əldən verməkdədir. Bunun qisasını da Avropa ölkələrindəki tərəfdarlarının vasitəsilə həmin ölkələrdən almağa çalışır. 11 sentyabr hadisələrindən sonra Amerikada bu cür teraktlar törətmək çətindir, ancaq Avropada müəyyən qədər bunu edə bilirlər. İŞİD-in Avropada kifayət qədər tərəfdarı var. Ancaq bu o demək deyil ki, onların hamısı Suriya və İraqda savaş təcrübəsi keçib. Son Barselona nümunəsi də ondan xəbər verir ki, həmin terrorçuların Suriyada olması və ya İŞİD-in müxtəlif komandirləri ilə əlaqədə olması vacib deyil. Rabitəli şəkildə də terror aksiyalarını həyata keçirirlər.

Bu terror aksiyaları Şengen dövlətləri arasında da sərhədlərdə müəyyən qədər nəzarətin artırılmasına gətirib çıxara bilər. Şengen ölkələri də artıq sərhədlərdə yoxlama tədbirlərini artırmağı planlaşdırırlar. Artıq terrorçulara bomba da lazım deyil, onlar dinc sakinlərin üstünə maşın sürürlər, əllərində bıçaqla hücum edirlər. Terrorçular əllərində olan bütün vasitələrdən istifadə edirlər ki, buna qarşı tədbir görmək də daha çətindir".

**Politoloq Qabil Hüseynli də vurğuladı ki, Avropada ekstremal bir vəziyyət yaranıb:** "İŞİD-in təsiri altında olanlar Avropada çox əcaib, həm də müsəlmanlar üçün ciddi bir töhmət yaradan hərəkətlər edirlər. Onlar avtomobillərlə əhalinin gur olduğu yerlərə hücum edir, piyadaları əzirlər. Yaxud qatarda, sərnişin avtobusunda, kafedə olan insanlara bıçaqla hücum edirlər. Bu iki üsul geniş yayılıb. Rusiyada da bənzər hadisələr baş verib. Mosul alındıqdan sonra İŞİD belə bir bəyanat yaymışdı ki, bundan sonra terror hərəkətlərini Avropaya və Rusiyaya keçirəcəklər. Bir-birinin ardınca bu hadisələr təkrar olunanda məsələnin ciddiliyi anlaşıldı. İspaniya terroru, Rusiyada olan terror hərəkətləri, İtaliyada bənzər hadisələrin gözlənilməsi, bütünlüklə Avropa məkanını təhdid edən terror təhlükəsizlik məsələsində ciddi təlatüm yaradıb. Çünki bu terrorçuların 90 faizi Avropa vətəndaşlığı olan insanlardır. Bunlar arasında ərəb kökənli Fransa vətəndaşları daha çoxdur. Baş verənlər hər kəs tərəfindən, ilk növbədə isə müsəlman ölkələri tərəfindən ciddi surətdə qınanmalıdır və elə bir ictimai -siyasi görkəm yaradılmalıdır ki, baş verənlərin İslamla heç bir əlaqəsi yoxdur. Doğrudan da bunu İslamla əlaqələndirmək çox çətindir, amma hər halda, bu hərəkəti törədənlərin demək olar ki, hamısı müsəlmanlardır. Bu isə Avropa ölkələrində, xüsusən Rusiyada islamafobiyanın geniş yayılmasına təkan verir. Millətçilərin, sağ təməyüllülərin yayıldığı ölkələrdə belə əks reaksiyalar çox şiddətli formada olur".

**Mühacirlərə gəlincə, politoloq qeyd etdi ki, bu kateqoriyadan olan insanlara münasibət dəyişib:** "Avropada mühacirlərə çox ehtiyatla yanaşırlar. Onlara yaşamaq, işləmək icazəsinin verilməsi demək olar ki, dayandırılıb. Avropa ölkələri sağ təmayüllülərin təsiri altında ərəb ölkələrindən və Əfqanıstandan miqrant qəbul etməməklə bağlı qərar qəbul ediblər və onu həyata keçirirlər. Çox ekstremal bir vəziyyət yaranıb və çox təəssüflər olsun ki, bu vəziyyəti müsəlmanlarla, İslam dini ilə ciddi şəkildə əlaqələndirirlər. İslam ölkələri bu hadisələrin baş verdiyi dövrdə siyasi ayıqlıq göstərməli, bu məsələdə İslamın rolunun olmaması barədə geniş təbliğat işi qurmalıdırlar".

❑ **Nərgiz LİFTİYEVA**

# Terrorçuların yeni silahı- özümüzü avtomobillərdən necə qoruyaq?




**Son zamanlarda Avropanın müxtəlif yerlərində törədilən terror aktlarında maraqlı bir nüans diqqət çəkir. Əgər indiyə qədər terrorçular ənənəvi olaraq, faciəni törətmək üçün köhnə üsullardan istifadə edirdilərsə, indi tamam fərqlidir. Yalnız avtomobillər vasitəsilə dəhşətli aktları həyata keçirirlər.**

## Sülhəddin Əkbər: "Terrorçular hərəkət edən, öldürücü olan nə varsa, onlardan istifadə etməyə çalışacaqlar"

Son olaraq, ötən həftə baş verən Barselona və son iki gündə Fransa və Belçikada avtomobil vasitəsilə həyata keçirilən terror aktları dediklərimizin əyani sübutudur.

Qeyd edək ki, son illərdəki əksər terror aktlarını həyata keçirən İŞİD ilk dəfə avtomobil vasitəsilə Fransada bu faciəni təşkil etmişdi. Sonra ardıcıl olaraq, Böyük Britaniya, İspaniya, Belçika kimi müxtəlif Avropa dövlətlərində bu tipli faciələrin törədildiyinin şahidi oluruq. Maraqlısı odur ki, əvvəlki illərdəki aktlardan fərqli olaraq, avtomobillər vasitəsilə törədilən faciələrdə daha çox insan itkisi baş verir. Təhlükəsizlik ekspertləri məhz bu səbəbdən



İŞİD-in daha çox bu variantdan istifadə etdiyini qeyd edirlər. Bundan əlavə, terror üçün istifadə edilən ləvazimatları, ən əsası partlayıcı maddələri Avropaya keçirməyin çətinliyini nəzərə alaraq, terrorçuların avtomobillərə üstünlük verdikləri vurğulanır. Terrorçular üçün avtomobil əldə etməyin asan olduğu da önə çəkilir. Bu tipli aktların qarşısını almaq üçün müxtəlif variantlar irəli sürülür.

**MTN-in sabiq birinci müavini, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər bildirdi ki, bu hadisələr ilk növbədə onu göstərir ki, dünyanın xüsusi xidmət orqanları beynəlxalq terrorizmlə mübarizədə xeyli irəliləyiblər:** "Artıq ənənəvi üsullarla terror təşkil etmək xeyli çətinləşib. Bu o deməkdir ki, onlar "canlı bombalar"la, partlayıcı maddələrlə, hətta adi silahlarla belə hərəkət etməkdə çətinlik çəkirlər. Buna görə də artıq mülki təyinatlı vasitələrdən hərbi məqsədlərlə istifadə etməyə başlayıblar. Terror düşüncəsi, ümumiyyətlə, asimetrik düşüncədir. Ona görə xüsusi xidmət orqanları düşünməməlidir ki, bunlar ancaq bundan sonra avtomobillərlə hərəkət edəcəklər. Onların əlində insana qarşı öldürücü nə varsa, ondan istifadə edə bilərlər. Bura bütün nəqliyyat vasitələri daxildir. Eyni zamanda ağıla gəlməyən bütün vasitələrdən istifadə edə bilərlər. Müəyyən yolları sadalayıb, şeytanın yadına daş salmaq istəmirəm. Amma xüsusi xidmət orqanları asimetrik, yaradıcı düşünməli və terrorçunun daha hansı vasitələrdən istifadə edə biləcəyini öncədən görməlidirlər. Bunun da nəticəsində qabaqcadan profilaktik tədbirlər görülməlidir. Terrorizmlə mübarizədə ikinci bir məsələ kəşfiyyat məsələsidir. Obyektiv, dəqiq, zamanında kəşfiyyat informasiyası olmadan təhlükəsizlik xidməti nə qədər güclü olursa-olsun, terrorun qarşısını almaq çox çətindir. Ona görə kəşfiyyat xidmətlərinin inkişafına xüsusi önəm verilməlidir. Bu sahədə beynəlxalq əlaqələr, əməkdaşlıq, müttəfiqlik gücləndirilməlidir. Çünki terror qlobal bir hadisədir və terrorla da qlobal əməkdaşlıq çərçivəsində mübarizə aparılmalıdır".

**Təhlükəsizlik eksperti avtomobillər vasitəsilə terror aktlarını həyata keçirməyin asan olmasına da toxundu:** "Avropanı götürsək, demək olar hər ailədə avtomobil var. İstənilən şəxsə oradakı maliyyə, kredit siyasəti imkan verir ki, maşın əldə edə bilsin. Məsələn, orada ikinci əl maşınları çox ucuzdur. Bundan sonra yəqin ki, xüsusi xidmət orqanları bu istiqamətdə daha intensiv şəkildə çalışacaqlar. Amma bu o demək deyil ki, terrorçular başqa yollar tapmayacaqlar. Hərəkət edən, öldürücü olan nə varsa, onlar "yaradıcı" beyinlərini işə salıb onlardan istifadə etməyə çalışacaqlar. Müxtəlif dərman vasitələrinə, zəhərli maddələrə olan nəzarət artmalıdır. Xüsusilə kimyəvi, bakterioloji, nüvə və kütləvi qırğın silahlarına olan nəzarət gücləndirilməlidir. İkinci təyinatlı materiallara da nəzarət artmalıdır. Bu sahədə xüsusi xidmət orqanları hansı addımları atmalıdır, məncə, bilirlər. Sadəcə, burada ən mühüm məsələ xüsusi xidmət orqanlarında yaradıcı düşüncəli insanlardan ibarət xüsusi qrupların yaradılmasıdır. Onlar terrorist düşüncə tərzini öyrənməli, yaradıcı düşünməklə terroristləri önləməlidirlər. Onların bir növ beyinlərinə girməlidirlər. Daha hansı yollara baş vura bilərlər, daha hansı yollardan istifadə edə bilərlər, daha hansı avadanlıqdan, təchizatdan, materialdan istifadə edə bilərlər, bunların hamısı öncədən görülməlidir ki, qabaqlayıcı tədbirlər də görmək mümkün olsun".

❑ **Cavanşir ABBASLI**

# Heykəlin oğlu



Zamin HACI
zaminhaci@gmail.com

**Deputatxana yay tətilinə çıxıb, bir az da qanunlar yox, şezlonq üzərində uzandığı günlərimizdə bəzi şıltaq, dəcəl üzvlər gündəmdən düşmürlər.**

Özünü günə verməklə gündəmə verməyin fərqi vardır. İkincilər xalqa daha yaxın tiplərdir. Elə biz jurnalistlər də gündəmdə qaralmağı sevən deputatlara min dəfə artıq hörmət bəsləyirik, çünki temaların öldüyü, mövzuların günvurmadan gicəlləndiyi bu isti avqust günlərində onlar bizim çörək ağacımızdır. Heç nə olmasa da, Tanzaniyada qəbilə başçısının yeddinci arvaddan olan beşinci oğlunun dümbülünü timsah dişləməsə, hətta Meksikada kimsə yol qəzasına düşməsə belə, deputatlarımız yazmağa, danışmağa mövzu verirlər.

Bu deputatlar bir az da anaları tərəfindən sıxışdırılan gözlüklü, aşırma şalvarlı, ağzıayrıq ibtidai sinif şagirdlərinə bənzəyirlər. Təsəvvür elə, uşaqlar həyətdə tozun içində topla eşələnir, velosiped sürür, nə bilim, sadəcə, elə burunlarını qurdalayır, sən isə qəddar ananın hardansa tapıb aldığı "Yay tapşırıqları" adlı qorxunc kitab üzərində işləməlisən. Eybi yoxdur. Əsas odur sentyabrda dərslər başlayanda məktəbin direktoru Oqtay müəllim Astanın gündəliyinə yağlı-piyli, quyruqları sallanan bir qəşəng "5" yazacaqdır. Deyəcək, sağ ol, hamı yatmışdı, ancaq sən oyaq idin, «Qaçqınkom» sədrinə dayaq idin, cəmiyyətimizə mayak idin, içməyə konyak idin *(Axırıncı çox zay qafiyə oldu, bilirəm, üzürlü sayın. Neyləyim, Anar müəllim AYB üzvlüyünə götürsə yaxşı qafiyə qoşmağı öyrənərdim).*

Belə yay-qış demədən işləyən deputatlardan biri isə Rüstəm Xəlilovdur. Açığı, mən onun adını birinci dəfə eşidirdim, ancaq bu istidə gündəmə gəlmək elə necə çağırış deputatlığa bərabərdir. Jurnalistlər yazdılar ki, Rüstəm müəllim atasına Sabirabadın Nizami kəndində, Füzuli küçəsi ilə Nəsimi küçəsinin kəsişməsində qızıl suyuna çəkilmiş heykəl qoyubdur *(Füzuli ilə Nəsimini versiya olaraq yazdım, dəqiq bilmirəm. Fikirləşdim yəqin Sabir və Nizami ilə başlayan söhbət belə davam etsə, poeziyamızın dövlətçilik ənənələrinə sadiqlik nümayiş etdirməkdə vüsət göstərər, o tayda Zəlimxan müəllimin ruhu isə şad olar. İlahi, amin! Yazını bu yerdən oxumağa başlayanlar üçün də bir salavat çevirək!)*

İnformasiyalarda Rüstəm müəllimin Sabirabaddan deputat olması yazılmamışdı, heç dəqiqləşdirmədim. Ancaq deyirlər, atası sovet vaxtı uzun müddət həmin kəndin kolxoz sədri olubdur, hətta Sosialist Əməyi Qəhrəmanı, Ali Sovetin deputatı-filan qoyulubdur. İndiki uşaqlar bilməz, o zamanlar çobanları, sağıcıları, kolxoz sədrlərini və başqa bu tip zəhmətkeşləri deputat qoyurdular, onlar da gedib əl çalıb gəlirdilər. Əl çalmağın bir neçə üsulu da var idi: "sürəkli alqışlar", "gurultulu alqışlar", "gurultulu və sürəkli alqışlar", "alqışlar, hamı ayağa qalxır". Məzə üçün yazmıram, bunlar hamısı "Pravda" və "Kommunist" qəzetlərində bitdə-bitdə yazılırdı. Allah Qorbaçovun və Raisanın evini yıxsın. Bunların hamısının kaseti rəhmətlik Rəşid Behbudovda var idi...

Harda qalmışdıq? Hə, Rüstəm müəllimdə. Bəzi korazehin, GMObeyinli (təzə kəşfimdir), əqrəba evliliyindən törəmə jurnalistlər hörmətli deputatı qınadılar, dedilər axı nə üçün o, dədəsinə heykəl qoyubdur. Hətta o dərəcədə mövzunu qurdaladılar, yazdılar ki, SSRİ vaxtı ancaq iki dəfə əmək və ya elə, sadəcə, qəhrəman adı alan tiplərə öz vətənlərində büst qoyulurdu. Çünki Rüstəm müəllim söhbət təzə qızışanda "O heykəl sovetdən qalmadır" demişdi. Açığı, mən də buna şübhə ilə yanaşdım, çünki paxıllar yaydıqları xəbərə heykəlin fotosunu da əlavə etmişdilər, fotodan isə görünürdü ki, bu büst deyil, o məşhur lətifədəki söhbət olmasın, "lap əməlli başlı" heykəldir.

Məncə, bu mövzunu qapatmaq lazımdır, o kənddə o kişiyə heykəl qoymaq vacib idi. Çünki belə oğul yetişdiribdir! Heç nə danışmır, nə xalqı soğan əkməyə dəvət edir, nə müəllimləri çoban olmağa. Maşınla adam basdalayan nazir nəvələrini müdafiə çıxışları da yapmır. Vaxtlı-vaxtında gəlir, düyməsini basır, çıxır gedir kasıbçılığının dalıyca. Allah atasına rəhmət, atasının kənddəki heykəlinə də qəşəng ziyarətlər qismət eləsin.

Hələ, məncə, yoxdursa, kənddə Gülabba müəllimə (deputatın atasının ismi-şərifidir) muzey də açılmalıdır. Açılışa o məşhur qrupu da çağıraq, gəlib "Həpi nyu iyə" oxusunlar. Bu hardan ağlıma gəldi, heç bilmirəm.

# İşğalçının Qərb şıltaqlıqlarına Kremldən ilginc reaksiya

# Moskvadan "yumşaq güc" nümayişi - İrəvan üçün sürpriz Qarabağ ssenarisi

## Rusiya xüsusi təyinatlılarının Ermənistanda ermənilərsiz keçirdiyi təlimlərlə düşmənə verilən incə mesaj; "Avropa Birliyi ilə sənəd imzalamağa gedirik" söyləyən baş nazir Karapetyan nədən nəticəyə əmin deyil?..




**İşğalçı Ermənistanın Rusiya ilə münasibətlər tarixində daha bir kritik nöqtə yaxınlaşır. Söhbət bu ilin noyabrında İrəvanın Avropa Birliyi ilə (AB) çərçivə sazişi imzalamağa hazırlaşmasıdır.**

Xəbər verdiyimiz kimi, imzalanacaq sənəd layihəsi artıq hazırdır. Lakin onun məzmunu hələlik tam açıqlanmır. Ola bilsin ki, bu da bəribaşdan Rusiyanı - Ermənistanın əsas siyasi-hərbi və iqtisadi sponsorunu qıcıqlandırmamaq üçün edilir.

*****

Söhbət əslində heç məzmundan da getmir. İş ondadır ki, Türkiyə kimi bir regional supergüc, NATO üzvü olan dövlət son vaxtlar Rusiya ilə bütün sahələr üzrə ciddi yaxınlaşma prosesi içindədirsə, hətta Ankara Avrasiya İqtisadi Birliyinə və Gömrük İttifaqına qoşulmaq meyli göstərirsə, satellit Ermənistan əksinə, Qərbə, onun strukturlarına reveranslar eləmək, NATO təlimlərinə qatılmaq, AB ilə saziş imzalamaq tövrü sərgiləyir, necə deyərlər, xarici siyasətdə "iki stul"da əyləşmək əzmi nümayiş etdirir.

"Noyabrda biz AB ilə sənədi imzalamağa gedirik". Musavat.com-un məlumatına görə, bu sözləri Ermənistanın baş naziri Karen Karapetyan dünən İrəvanda jurnalistlərin mövzuya aid verdiyi və cəmiyyəti narahat edən sualı cavablandırarkən deyib. Lakin Karapetyan "o zaman 2013-cü il ssenarisi təkrarlanmaz ki" sualını cavabsız buraxıb.

Bu da müxtəlif şərhlərə yol açıb. Onlardan biri də belədir ki, rəsmi İrəvan bu məsələdə özünə göründüyündən fərqli olaraq, elə də arxayın deyil - hərçənd erməni rəsmiləri son sənəd layihəsinin Rusiya ilə əlaqələrə neqativ təsir etməyəcəyini bəyan eləməkdən yorulmurlar.

*****

Yada salaq ki, 2013-cü ildə də Ermənistan AB ilə indikindən elə də fərqlənməyən saziş layihəsini imzalamağa hazırlaşırdı. Lakin imzalanma ərəfəsində Rusiya prezidenti Vladimir Putin erməni həmkarı Serj Sərkisyanı Moskvaya çağıraraq, onu bu sənəddən imtinaya vadar elədi. Sərkisyan müvafiq bəyanat verdi və üstəlik, Kremlin geosiyasi layihələri olan Avrasiya İqtisadi Birliyinə və Gömrük İttifaqına Ermənistanın qoşulduğunu bildirdi.

Məlumatlara görə, o zaman Putin Sərkisyanı Qarabağla - "Xankəndinə istiqamətlənmiş Azərbaycan tankları" ilə də qorxudub, ona hətta Azərbaycan Silahlı Qüvvələrinin yürüş planını göstərib. Erməni isteblişmentində nə qədər özünə arxayınlıq olsa belə, İrəvan yaxın keçmişdəki bu mühüm detalı unuda bilməz. Üstəlik, 2013-cü ildə Rusiya-Qərb (ABŞ) münasibətləri indiki qədər gərgin deyildi, çünki Krım böhranı yox idi.

Deməli, hazırda Moskva öz dost-müttəfiqlərinin hərəkətlərinə qarşı qat-qat həssasdır. Bunu Ermənistan hərbçilərinin NATO hərbi təlimlərində iştirakına Moskvanın rəsmi səviyyədə olmasa da, Kremlə yaxın tanınmış analitiklər səviyyəsində neqativ reaksiyası bir daha təsdiqlədi.

*****

Əslinə qalsa, rəsmi reaksiya da artıq gəlməyə başlayıb. Özü də hərbi xarakterli. Məsələn, dünən Rusiyanın Ermənistanda yerləşən Cənub Hərbi Dairəsinin (CHD) hərbi bazasının kəşfiyyat bölmələrinin hərbçiləri - xüsusi təyinatlılar ilk dəfə olaraq güc ləri şərti düşmənin arxasına keçirmək üzrə təlimlərə başlayıb. Özü də təlimlər erməni hərbçiləri ilə birgə keçirilmir.

CHD-nin mətbuat xidmətinə istinadən verilən məlumatda deyilir ki, təlimlərə "Mi-24P" hücum vertolyotu və "Mi-8Mt" ordu aviasiyasının hərbi-nəqliyyat vertolyotu, eləcə də Rusiyanın Cənubi Qafqazdakı hərbi birləşməsinin pilotsuz uçan aparatları cəlb edilib. Qeyd olunur ki, hazırlıq zamanı xüsusi təyinatlılar dəniz səviyyəsindən 2 min metrdən çox yüksəklikdə yerləşən "Kamhud" və "Alagöz" yüksək dağlıq poliqonlarında təlimatçıların vasitəsilə təcrübədə şərti düşmənin arxasına desant keçirmək üzərində məşq edirlər. Həmçinin təlim zamanı vertolyotçularla xüsusi təyinatlılar qrupların şərti düşmən xətlərinin arxasına standart çıxışı üzərində çalışır, şərti düşmənin aşkar edilməsi məqsədilə kəşfiyyat-axtarış tapşırıqlarını yerinə yetirir.

İlk baxışda elə böyük miqyaslı təlim deyil. Lakin onun Ermənistan ərazisində və ermənilərsiz keçirilməsi, üstəlik, təzəcə NATO təlimlərinə qatılmış erməni hərbçilərinin evə qayıdışından az sonraya təsadüf eləməsi səbəbindən onu İrəvana incə bir çatdırış da saymaq mümkündür. Yəni Rusiya belə bir "yumşaq güc" nümayişi taktikası ilə anlatmaq istəyir ki, "cənab haylar, Rusiya, onun ordusu sizin içinizdədir, ağlınızı başınıza yığın, özünüzü də yaxşı aparın". Moskva İrəvana qarşı sürpriz Qarabağ ssenarisini də işə sala bilər.

*****

Ancaq erməni erməni olmazdı, əgər gözü öz sahibindən başqa orda-burda qalmasaydı. Doğru, ermənilər iki əsrdir ki, Moskvanın bölgədəki sadiq maşası rolunu oynayırlar. Ancaq bu rol da günün birində lazım olmayacaq. Çünki Rusiya bölgədən çəkilib getməli olacaq. Bunu ermənilər də anlayır. Moskvanın Qərblə, Amerika ilə kritik vəziyyət alan münasibətləri fonunda işğalçının axır vaxtlar tez-tez ora-bura vurnuxması nın, Avropa Birliyinə, NATO-ya doğru "cığırlar" axtarmasının qayəsində məhz bu imperativ dayanır.

❑ **Analitik xidmət**



# Hafiz Hacıyevdən "Qaçqınkom" sədrinə ağır suçlamalar

## "Heç olmasa, ölkə ictimaiyyətinə hörmət edib, istefa versin"

**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev "Yeni Müsavat"a açıqlamasında son zamanlar ölkədə məmur övladlarının özbaşınalığından danışıb. O, əsasən Qaçqın və Məcburi Köçkünlərlə iş üzrə Dövlət Komitəsinin sədri ("Qaçqinkom") Əli Həsənovu hədəf alıb: "Cəmiyyətdə son zamanlar məmur övladları ilə bağlı xoşagəlməz hallar yaşanır. Məsələn, "Qaçqınkom"un sədri Əli Həsənovun nəvəsinin milyonlarla dollar dəyərində maşın kolleksiyasının olduğunu gördük.**

Hələ bu, sərvətlərinin çox az bir hissəsidir. Ümumiyyətlə, burada, sadəcə olaraq, məmurun nəvəsinin harınlaşmasından söhbət gedir. Əli Həsənovun özü bir zamanlar Azərbaycan ictimaiyyətinə nəsihət, təlim-tərbiyə verirdi ki, mənim övladlarım belədir, elədir. Axırı gördük nələr çıxdığını. 21 yaşında uşağın 5-6 milyonluq maşın kolleksiyasının olması kiçik məsələ deyil. İndi də vurub 2 nəfəri öldürdü, həbsxanada komfort həyat yaşayır. Burada söhbət baş nazirin müavini Əli Həsənovdan gedir. Əli Həsənov dövlət tərəfindən Azərbaycanın məcburi köçkünlərinə ayrılan pulları mənimsəyib. Bu adamın Sumqayıtda onlarla mənzili var. Bir generalın oğlu hansısa sürücüyə sillə vurdu və dərhal atası vəzifədən kənarlaşdırıldı. O zaman bəs niyə Əli Həsənov vəzifədən getməməlidir? Nə üçün bu adam nəvəsinin sahib olduğu pullara görə hesabat verməməlidir? Bu məsələlər çox ciddidir. Biz yalnız dövlət başçımızı qorumalıyıq. Çünki dövlətin atributu onun başçısıdır. Yoxsa biz daha durub hökumətin üzvlərini qorumamalıyıq. Onların əksəriyyəti korrupsionerdir. Hansını tərpədirsənsə, altlarından milyonlarla dollar, tonlarla qızıl çıxır. Bizim bəzi yoldaşlar dövlətlə hökuməti qarışdırırlar. Baxın, Tağı Əhmədov milyonları yedi, indi də cəzasız ortalıqda gəzir.



Eldar Mahmudovla Ziya Məmmədov da onun kimi. Ziya Məmmədov faktiki olaraq milyardları yığdı, indi də aparıb Milli Şuranı maliyyələşdirir. Yaxşı, bunları kənara qoyaq, bəs 70 yaşlı Əli Həsənov niyə vəzifədə qalmalıdır bu qədər hadisədən sonra? İkinci tərəfdən də, bu adam hələ Yeni Azərbaycan Partiyasında da müavin vəzifəsindədir. Heç olmasa, ölkə ictimaiyyətinə hörmət edib, istefa versin. Onun nəvəsini kukla kimi təcridxanada kondisionerli otaqda oturtmağın nə mənası var? Sabah da hansısa adla məhkəmədən azad edəcəklər".

**H.Hacıyev hesab edir ki, xalqın arasında Əli Həsənova qarşı çox böyük qəzəb var:** "Bu adama xalq arasında nifrət var. Sosial şəbəkələrdə də onunla bağlı müxtəlif fikirlər gəzir ki, bunlar da nəzərə alınmalıdır. Bu adam şəhərciklərdə məcburi köçkün olmayan şəxslərə evlər paylayıb. Sahib olduğu evləri yataqxanalarda yaşayan məcburi köçkünlərə verməlidir. Bu adamın işi ciddi şəkildə yoxlanılmalıdır. Vaxtilə Əli Həsənov mərhum prezident Heydər Əliyevə də xəyanət edib. Onun Azərbaycana gəlməsini istəməyib. İndi nə oldu, belələri vəzifədədir, bu yolda can qoyan bizim kimilər də dilənir. Bunların hamısını nəzərə aldıqda deyə bilərik ki, Əli Həsənov bir gün də olsun vəzifədə qalmamalıdır. Qaçqınlara ayrılan milyardlarla pulun əksəriyyəti bu adamın cibində, bank hesablarında, qohumlarındadır".

**Vilyam Hacıyevin təltif olunması barəsində H. Hacıyev aşağıdakıları söylədi:** "Vilyam mənim atamın əmisi oğludur. Onun vətənə hansısa xidmət etməyini görməmişəm. Əgər ölkə başçısı ona orden verilməsini münasib bilibsə, buna qarışmaq bizə düşməz. Görünür, belə məsləhət bilinib. Vilyama ordeni mənim xətrimə veriblər. Yoxsa onun elə bir hörməti yoxdur. Mənim xidmətlərimə görə Vilyam orden alıb".

**H.Hacıyev onu da qeyd edib ki, partiya olaraq ciddi şəkildə prezident seçkilərinə hazırlaşırlar:**

"Çox ciddi hazırlaşırıq. Ancaq bir məsələni qeyd edim ki, bizim üçün önəmli olan əsas məsələ dövlətin müstəqilliyi, varlığıdır. Ona görə də seçkilərə tam hazırlığa start vermişik. Müavinlərimiz rayonlara gedir, özüm partiya üzvləri ilə görüşlər keçirirəm. Artıq təbliğat işlərini qurmuşuq. Partiyanın rəhbərliyi yayın qızmar günündə belə insanların içərisində olub, onlarla söhbətlər aparıb. Arzu edərdim ki, rəqiblərim daha güclü olsun və eyni zamanda milliyyət baxımından qarışıqları olmasın".

❑ **Əli RƏİS**

# Ziya Məmmədovla Arif Əsgərov 12 illik həbsə göndərilə bilərlər- vəkil danışdı



Ziya Məmmədov



Arif Əsgərov

## "Bombardier"in 340 milyonluq rüşvət "bombası" sabiq nazirlə müavinini həbsə aparır

**İsveç Baş Prokurorluğunun Azərbaycan dəmir yolunun təchizatı tenderinə dair korrupsiya işi ilə bağlı apardığı təhqiqatın miqyası hər ötən gün böyüyür. İstintaqa yeni şirkətlərin cəlb olunması haqqında məlumatlar gəlməkdədir. Belə görünür ki, İsveç Baş Prokurorluğunun Azərbaycan dəmir yolunun təchizatı tenderinə dair korrupsiya işi ilə bağlı apardığı təhqiqat Azərbaycanda da "böyük başları" dərdə salacaq.**

İsveç prokurorları Kanadanın "Bombardier" şirkəti əməkdaşının digər əməkdaşlarla əlbir olmaqla, 340 milyon dollarlıq müqavilə bağlamaq üçün "Azərbaycan məmurunu ələ almaq barədə" rəsmi ittiham irəli sürməyə hazırlaşır. Bu barədə dünyaca məşhur "Reuters" agentliyi məlumat yayıb. Hələlik həmin məmurun adı açıqlanmır. Bundan əvvəl isə mətbuatda İsveç Baş Prokurorluğunun apardığı təhqiqatda adı hallanan məmurlar kimi Ziya Məmmədov və Arif Əsgərovun adları ehtimalla çəkilirdi.

**İstintaq zamanı 340 milyonluq tenderdə bu iki eks-vəzifəlinin adı rüşvət almış şəxs kimi çəkilsə, onları hansı cəza gözləyir?**

**Vəkil Elçin Sadıqov deyir ki, İsveç prokurorluğunda araşdırma sona çatandan sonra Azərbaycan prokurorluğu da bu iş üzrə araşdırma apara bilər:** "İstintaqın sonunda İsveç prokurorluğu da adı rüşvət almış məmur kimi keçən şəxsi beynəlxalq axtarışa verəcək. Bundan başqa, Azərbaycan prokurorluğuna cinayət işinin qovluğunu təqdim edib həmin məmurun istintaqa cəlb olunmasını, onun cəzalandırılmasını da tələb edə bilərlər".

**E.Sadıqov deyir ki, əgər İsveç prokurorluğunun apardığı araşdırma üzrə azərbaycanlı məmur Azərbaycanda istintaqa cəlb olunarsa, onu rüşvət alma cinayətinə görə 12 il müddətinə azadlıqdan məhrum etmə cəzası gözləyir:** "İsveç prokurorluğu həmin məmurun öz ölkəsində məhkəmə qarşısına çıxarılmasını tələb edə bilməz. Tələb etsə belə həmin məmur və ya məmurlar İsveç tərəfinə təhvil verilə bilməzlər. Ona görə də cinayət işinin qovluğunu Azərbaycan prokurorluğuna təqdim etməlidirlər. Buna cinayət işinin istintaq aparılmalı və nəticəsinə görə iş məhkəməyə göndərilməlidir. Məhkəmədə həmin məmuru və ya məmurları 12 ilə qədər azadlıqdan məhrum etmə cəzası və əmlaklarının müsadirəsi gözləyir".

Yada salaq ki, "Bombardier" şirkətinin adı qarışan beynəlxalq rüşvət qalmaqalı 1 ildən artıqdır ki, dünya mediasının gündəmindədir. Sabiq şefi kimi işsiz qalan nəqliyyat nazirinin müavini Arif Əsgərovun adı İsveçin "Bombardier" şirkətinin adı keçən 56 milyonluq yeyintidə hallanırdı. 2004-2015-ci illərdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri vəzifəsində çalışmış A.Əsgərovun adı daim böyük qalmaqallarda hallanırdı. Hətta 2013-cü ildə bu qalmaqallar üzündən onun həbs ediləcəyi də gözlənilirdi. Həmin il QSC-də külli miqdarda, daha dəqiq desək, 48 milyonluq yeyinti faktı aşkarlandı, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları QSC-nin marketinq şöbəsinin rəisi Arif Əsgərovun baldızı oğlu Rahib Hüseynovu həbs etdi. R.Hüseynov 48 milyon manat dövlət əmlakını mənimsəməkdə ittiham olunurdu. Az sonra məlum oldu ki, R.Hüseynovu qabağa verib həbs etdirən də A.Əsgərovun özü olub. O bu yolla oğlu, "Liman Group" şirkətinin rəhbəri Elnar Əsgərovu məsuliyyətdən kənarda saxlamağı bacardı. Bu məsələ haqda "Yeni Müsavat" yazandan sonra A.Əsgərov üzə çıxdı və dedi ki, onu bu iş üzrə istintaqa çağırmayıblar. Bu qalmaqallı olayın toz-tozanağı yatmamış, İsveç məhkəməsi Kanadanın beynəlxalq nəqliyyat infrastrukturu şirkəti olan "Bombardier"in bu ölkədəki törəmə şirkəti "Bombardier Transportattion"un əməkdaşı olan Rusiya vətəndaşını həbs edib. "Bombardier" şirkətinin bir neçə top-meneceri "Azərbaycan Dəmir Yolları" QSC ilə 2013-cü ildə bağlanmış müqaviləyə görə Azərbaycanın vəzifəli şəxslərinə 56 milyon dollar ötürülməsinə dair sövdələşmədə iştirak ediblər.

Söhbət "Bombardier"lə Bakı-Böyük Kəsik dəmir yolu xəttinin siqnal sisteminin modernləşdirilməsi ilə bağlı 2013-cü ildə imzalanmış müqavilədən gedir. Müqaviləyə əsasən, şirkət uzunluğu 503 km olan dəmir yolunda "İnterflo 200" siqnal sistemlərini quraşdırmalıdır. İşlərə layihələndirmə, istehsal, çatdırılma, montaj, yoxlama və xətt üzrə "İnterflo 200" siqnal sisteminin istismara verilməsi daxildir. Sistemin tətbiqi dörd mərhələdə həyata keçirilməlidir, prosesin özü isə tam olaraq 2017-ci ildə başa çatmalıdır. Müqavilə imzalanarkən "Azərbaycan Dəmir Yolları" QSC Nəqliyyat Nazirliyinin tərkibində idi və bu struktura Arif Əsgərov rəhbərlik edirdi. Artıq "Bombardier" şirkətinin əməkdaşının barəsində 2 həftəlik həbs-qətimkan tədbiri seçilib. Həbs olunan Yevgeni Pavlovdur. Onun vəkilləri bildiriblər ki, o və "Bombardier" şirkətinin bir neçə top-meneceri Azərbaycanla korrupsiya sövdələşməsində ittiham olunurlar. Böyük yeyinti faktlarını üzə çıxaran isə İsveçin SVT telekanalı, TT agentliyi və "Radio Canada", habelə mütəşəkkil cinayətkarlıq və korrupsiya araşdırmaları üzrə jurnalistika Mərkəzi OCCRP-dir. Jurnalistlər aşkara çıxarıblar ki, "Bombardier" şirkəti ilə "Azərbaycan Dəmir Yolları" QSC arasında bağlanmış müqaviləyə əsasən, 46 siqnal avadanlığı birbaşa Azərbaycana göndərilir, ancaq pullar Londonda qeydiyyatdan keçmiş, nə ofisi, nə ünvanı, nə telefon nömrəsi olmayan hansısa şirkətə köçürülür. Sövdələşməyə əsasən, siqnalizasiya avadanlıqlarının təchizatı iki ayrı müqavilə əsasında həyata keçirilir. Birinci müqavilə üzrə "Bombardier" şirkəti tərəfindən "Ebilock-950" siqnalizasiya avadanlığı 126 milyon İsveç kronuna Londonda qeydiyyatdan keçmiş həmin "Multiserv Overseas" şirkətinə satılır, həmin şirkət isə avadanlığı bu dəfə 5,5 dəfə baha qiymətə, yaxud o vaxtkı məzənnə ilə 695 milyon krona və ya 104 milyon dollara Azərbaycana satır. İsveç prokurorluğu bildirir ki, Azərbaycan məmurları "Bombardier" şirkəti ilə bağlanmış müqavilədən bu fırıldaq mexanizm sayəsində "otkat" alıblar. İsveç hüquq-mühafizə orqanları diqqəti belə fakta yönəldir ki, 2013-cü ildə "Azərbaycan Dəmir Yolları" QSC-nin elan etdiyi həmin tenderə "Bombardier" şirkətindən başqa bir neçə şirkət də qatılmışdı və onlar xeyli aşağı qiymət təklif etmişdilər. Lakin müqavilə "Bombardier"lə bağlanıb. Həmçinin üzə çıxıb ki, müqavilə üzrə işlərin görülməsi zamanı 56 milyon dollar Azərbaycan məmurlarına ötürülüb.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 175 (6789) 23 avqust 2017



# Valideynlərin repetitor dərdi - çıxış yolu nədədir?

## Bir abituriyentin iki illik hazırlığı 4500 manata başa gəlir; **təhsil eksperti:** "Kursların və repetitorluğun açıq təbliğinə son qoyulmalıdır"

**Bütün valideynlər övladının ali təhsil almasını, savadlı bir gənc olmasını istəyir. Ancaq hamımız bilirik ki, bu, yalnız orta məktəb təhsili ilə mümkün olmur. Çünki müəllimlərin əksəriyyəti repetitorluqla məşğul olduqları üçün məktəbdə dərs proqramının şagirdlər tərəfindən tam mənimsənilməsində maraqlı olmurlar. Az hallarda sırf məktəbdə aldığı biliklə ali məktəbə qəbul ola bilən abituriyentlər olur.**

Buna görə də valideynlər məcburiyyət qarşısında qalıb övladlarını 9, bəzən isə 10-cu sinifdən repetitor yanına və ya abituriyent hazırlığı ilə məşğul olan kurslara qoymalı olurlar. Bu isə o deməkdir ki, valideyn 2-3 il ərzində sanki kredit ödəyirmiş kimi hər ay müəllimlərə, müxtəlif kurslara pul ödəmək məcburiyyətində qalır. Bunun sonunda nə olacağı isə naməlumdur. Əgər uşaq bu hazırlıqlar nəticəsində ali məktəbə qəbul olmursa, bu, valideynin müəllimlərə xərclədiyi 3 illik pulun batması deməkdir.

Ancaq sonunun nə olacağını bilməsələr belə, övladının ali təhsil almasını istəyən valideynlər ucuz müəllim və kurs axtarışına çıxırlar. Təsadüfi deyil ki, bu gün televiziyalarda bu cür abituriyent hazırlığı kurslarının reklamları gedir. Repetitorlar bir fənn üzrə abituriyentləri 50-70 manat arasında hazırlaşdırırlar. Hər qrup üzrə 5 fənn olduğunu nəzərə alsaq və orta hesabla hər fənni 50 manatdan hesablasaq, 5 fənn üzrə hazırlaşmağın bir ayı 250 manata, bütöv tədris ili yəni 9 ayı isə 2250 manat edir. Əgər uşaq 10-cu sinifdən etibarən 5 fənn üzrə repetitor yanına 2 il müddətində getsə, bu, valideynə 9 4500 manata başa gələcək. Əgər bir evdən iki



uşaq repetiror yanına gedirsə, bu qiymət iki qat olur ki, buna hər ailənin maddi imkanı yetmir.

Hazırlıq kurslarında da qiymətlər müxtəlifdir. "Kaspi" kursunda 9-cu sinif üçün 5 fəndən həftədə 15 saat olmaqla, bir abituriyent hazırlığının aylıq qiyməti 200 manata, 10-cu sinif üçün həftədə 17 saat olmaqla, 230 manat, 11-ci sinif üçünsə həftədə 19 saat olmaqla, 270 manata başa gəlir. "Hədəf" kursunda isə "Kaspi"yə nisbətən qiymət bir qədər aşağıdır. Burada 9-cu siniflər üçün hazırlıq 180 manat, 10-cu sinif üçün hazırlıq 210 manat, 11-ci sinif üçünsə 230 manatdır. Zirvə kursunda 9 abituriyent 210-230 manat arasında hazırlaşdırılır. Məsələn, "Kaspi" kursunda bir abituriyentin hazırlığa getməsinin 1 ayının 270 manat olduğunu nəzərə alsaq, bu, 9 ayda valideynə 2430 manata başa gələcək.

Qeyd edək ki, belə bir iddialar da var ki, məktəbdə repetitorluqla məşğul olan müəllimlər həmin sinif otağına görə məktəb direktoruna aylıq haqq ödəyir ki, bu pulu da hazırlaşdırdığı abituriyentlərdən çıxırlar. Əslində isə sinif otağının "icarəyə" verilməsi və buna görə məktəb direktorunun müəllimdən haqq tələb etməsi qanunaziddir. Repetitorluqla məşğul olan müəllimlərin bir qismi hətta sinifdə hazırlığa onun yanına gəlməyən şagirdləri incidir, açıq şəkildə qiymət yazmamaqla təhdid edirlər. Bəzən isə elə hallar olur ki, uşaq oxumadığı, dərsi mənimsəyə bilmədiyi halda müəllim bu barədə valideynə məlumat vermir və aldığı aylıq pula görə uşağın oxuduğu yalanını uydurur və qiymətlərini yaxşı yazır. Nəticədə abituriyent keçid balını belə toplaya bilməyəndə o zaman artıq hər şey gec olur. Repetitor 2-3 il ərzində aldığı pulu geri qaytarmır. Burada isə ziyan yalnız valideynə dəymiş olur.

Maraqlıdır, repetitorluğun qarşısı alınmalıdırmı? Belə olan halda məktəblərdə müəllimlər həvəslə dərsə yanaşa bilərmi?

**"XXI Əsr" Təhsil Mərkəzinin rəhbəri, təhsil eksperti Etibar Əliyev repetitorluğun xüsusi bilik vermədiyini dedi:** "Dünya səviyyəli təhsil mütəxəssisi Mark Brey mühazirələrinin birində repetitorluğu "kölgə təhsili" adlandırıb. Fikrimcə, bu uğurlu anlayışdır. Repetitorluğun adı çəkiləndə çoxları bunun dünyanın hər yerində olduğunu qeyd edirlər. Ancaq ölkələrin əksəriyyətində tüğyan edən bu xidmət bir-birindən kəskin fərqlənir. Təhsil sektorunda bu xidmətə qoyulan vəsait ilbəil artır. Məsələn, Almaniyada bu "kölgə təhsilin" illik dövriyyəsi 1,5 milyard avro, Yunanıstanda 1.7 milyard avro, Fransada 2.21 milyard avro, Koreya və Türkiyədə isə daha böyük vəsaitlər təşkil edir. Bu cür elmi-statistik təhlillərdə ölkəmizin adı yer almır. Görünür ki, "kölgə"nin ölçüsü lap böyükdür. Rəqəmlər onu göstərir ki, bu istiqamətdə müəyyən hesabatlıq var. Bu kimi faktlar həm də bütün dünyada orta təhsilin pulsuz olmasını təkzib edir. Repetitorluq xüsusi bilik vermir. Bu, sırf imtahanlara hazırlıqla bağlı keçilən pullu dərslərdir. Bizim kimi ölkələrdə repetitorluğun əsas mənfi cəhəti ondan ibarətdir ki, bu işlə məşğul olanlar bilərəkdən əsas dərslərdə proqramın mənimsənilməsində maraqlı olmurlar. Əlavə dərslərə gələn uşaqların qiymətini yüksək yazırlar. Belə hallar bir neçə ölkədə aşkar edildikdən sonra bu xidmətə qadağa qoyulub. Kütləvi informasiya vasitələri kursların və repetitorluğun reklamı ilə məşğuldur. Bu gün şagirdlərin bütün uğurlarını bu şəbəkələrlə bağlayırlar".

**E.Əliyev hazırda məktəb təhsilinin kölgədə qaldığını bildirdi:** "Repetitorluğun keyfiyyəti də sual altındadır. Repetitorluğun keyfiyyəti təkcə müəllimlərin ixtisaslaşmasından asılı deyil, həm də şagirdlərin motivasiyasından asılıdır. Valideynlər əlavə dərslərdə iştirak etmirlər. Onları yalnız uşaqlarının imtahan verib-verməmələri maraqlandırır. Buna baxmayaraq, onlar istənilən vaxt məktəbdə əsas dərslərdə uşaqlarına keçilən dərsləri müşahidə edə bilərlər. Təhsil sistemi inkişaf etmiş ölkələrdə orta məktəblərdə dərslər saat 15-16-ya qədər davam edir. Valideynlərin əsasən işdə olduqları vaxtda uşaqların repetitorla məşğul olmaları tamam başqa xarakter daşıyır. Mütəxəssislər bunun sosiallaşma tərəfini daha yüksək qiymətləndirirlər. Fikrimcə, kursların və repetitorluğun açıq təbliğatına son qoyulmalıdır. Bu, valideynləri və uşaqları məktəbdən soyudur. Ancaq bunları kimə deyəsən? Bu gün təhsil qurumları bu xidmət sahəsini kölgə vəziyyətdən çıxarmaq üçün tədbirlər görməlidir. Müəllimlərin biliklərinin qiymətləndirilməsi, müəllimlərin imtahanla işə qəbulu kimi mühüm və əhəmiyyətli tədbirlər repetitorluq xidmətinin azaldılması və məktəbin güclənməsinə xidmət etməlidir".

❑ **Günel MANAFLI**

# Kürdəmir məktəblisi zorlanma olayına görə həbs edildi



## **Güləbətin Salahova:** "Oğlum and-aman edir ki, məsələdən qətiyyən xəbəri yoxdur"

**Kürdəmir rayonu Xınıslı kənd sakini Salahova Güləbətin Rza qızı redaksiyamıza gələrək fəryad edib. Şikayətçi bildirib ki, bugünlərdə 17 yaşlı məktəbli oğlu Məmmədov Bəhram Yengibar oğluna həmkəndlisini zorladığı barədə böhtan atılıb: "Oğlum Bəhrəm Xınıslı kənd məktəbinin 11-ci sinif şagirdidir. Bugünlərdə oğlumu həbs edib, işgəncə verdilər. Guya ki, 16 yaşlı həmkəndlisi M.R.F oğlunu zorlayıb. Bu haqda video və foto da yayılıb. Həmin görüntülərdə M.R.F-nin əxlaqdan kənar əksləri var. Lakin onun yanındakıların kimliyi bəlli deyil. İddia edirlər ki, guya yanındakılardan biri mənim oğlum olub, hansı ki, heç bir dəlil-sübut, şahid yoxdur. Oğlum da and-aman edir ki, məsələdən qətiyyən xəbəri yoxdur.**

Mən oğlumu 4 yaşından saxlayıb, ona analıq etmişəm. Həyat yoldaşım gözdən 1-ci qrup əlildir. Övladımızı min bir əzab-əziyyətlə böyüdüb, tərbiyə etmişik. Hansısa məqsədlər üçün oğluma bu böhtan atılır. Həbsdə olduğu zaman ona ağır işgəncələr verilir, törətmədiyi cinayəti boynuna qoymaq istəyirlər. Oğlum mənə məktub yazaraq bildirib ki, "Ana, bu cür haqsızlığa görə intihar edəcəm"".



**Ananın sözlərinə görə, əvvəlcə məlum video və görüntüləri çəkən şahid istintaqa cəlb olunsa da, sonradan gizlədilib:** "Əvvəlcə Münasib adlı oğlan görüntüləri çəkdiyini boynuna alsa da, sonradan istintaqdan uzaqlaşdırıldı. Hələ də onun məsuliyyətdən kənarda saxlanılması faktı araşdırılmır. Zorlandığını iddia edən azyaşlı isə mənimlə söhbətində 2 həftə öncə, daha sonra isə 1 il bundan qabaq zorlandığını deyir. Uşaq əvvəlcə onu zorlayan şəxsin mənim oğlum olduğunu, sonrakı ifadələrində isə tanımadığı şəxslər tərəfindən törədildiyini bildirir. Üstəlik, başına gələn bu olayın harada, hansı şəraitdə baş verdiyini izah edə bilmir.

Kürdəmir Rayon Polis Şöbəsinin müstəntiqi polis mayoru Rüfət Mustafazadə kəndimizdən çoxlu sayda azyaşlıları zorla gətirib hədə-qorxu gələrək oğlumun əleyhinə yalan ifadə verib, şahidlik etməyə məcbur edir. Həmin azyaşlıların valideyinləri buna görə səs-küy salırlar. Artıq həmin valideynlər aidiyyəti orqanlara şikayətlər göndəriblər və şikayət etmək üçün Prezident Aparatına gedəcəklər.

Zorlanma hadisəsini videolentə alan şəxsin, oradakı zorlayanın kimliyini nə üçün müəyyən etmirlər? Nə üçün heç bir şahid, subut olmadan azyaşlı övladımı həbs ediblər?

Polis şöbəsində mənim ifadəmi alarkən bildirdim ki, "Zorlanmada mənim oğlumun iştirak etməsi haqda heç bir dəlil-sübut, şahid yoxdur. Hansı haqla oğlumu günahlandırıb, işgəncə verirsiz?" Buna görə məni təhqir etdilər, hətta arxadan təpiklə vurub, otaqdan çıxartdılar".

**Güləbətin Salahova mətbuat vasitəsilə aidiyyəti orqanlardan imdad diləyib:** "Ombusdman Aparatına müraciət etmişəm. Qurumdan bildirildi ki, məsələ ilə bağlı araşdırma aparılacaq. Digər aidiyyəti qurumlardan da xahiş edirəm, mənim azyaşlı günahsız oğlum Bəhrəmin hüquqları müdafiə olunsun. Bir daha qeyd edirəm ki, oğlum bütün bu olaylara dözməyib intihar etmək istəyir. Biz övladımızı çox çətinliklə böyütmüşük. Baş verən haqsızlığa dözə bilmirik".

**Məsələ ilə bağlı qarşı tərəfin də rəyini dərc etməyə hazırıq.**

❑ **Xalidə GƏRAY**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 175 (6789) 23 avqust 2017



# Qarabağ "düyünü"nə kim "düyün" vurur - Rusiya, yoxsa Qərb...

**Türkiyə XİN-in keçmiş rəhbəri:** "Ermənistan işğalla ən böyük pisliyi özünə, xalqına, iqtisadiyyatına edib"; **erməni şərhçi:** "Rusiya özü Türkiyə və İranla dostluq edir, bizim şüurumuzda isə onların "vəhşi obrazı"nı təzələyir..."

**Dağlıq Qarabağ ətrafında situasiya sülh danışıqlarının fiasko olması üzündən aydan-aya daha ümidsiz və qəliz bir duruma girməkdədir. Belə görünür ki, Azərbaycan və Ermənistan XİN başçılarının gələn ay BMT Baş Məclisi çərçivəsində ehtimal edilən görüşü də vəziyyətdə əhəmiyyətli dönüş yarada bilməyəcək. Niyə?**

Ona görə ki, belə bir dönüş üçün öncəliklə ATƏT-in Minsk Qrupu həmsədrlərindən, ələlxüsus da Rusiyadan tələb olunan siyasi iradə və təşəbbüskarlıq hələ ki ortada yoxdur. İşğalçı Ermənistan da mövcud durumdan istifadə edərək, status-kvonu uzatmağa, hətta bir qarış ərazi qaytarmaya-qaytarmaya təmas xəttində atəşkəs pozuntusuna nəzarət üçün yeni izləmə mexanizmlərinin tətbiqinə çalışır.

Aydındır ki, düşmən o halda, yəni faktiki cəbhə xəttinin legitim cəbhə xəttinə çevriləcəyi təqdirdə arxayın və cəzasızlıq şəraitində öz işğalçılıq siyasətini davam etdirməyə, Azərbaycanın hərbi zərbələrindən yayınmağa ümid edir. Təbii ki, Bakı heç vaxt buna razılıq verməyəcək. Çünki Qarabağ problemi dondurulmaq yox, təcili həll yolu tələb edir.

*****

"Dağlıq Qarabağ probleminin həllini tapmaq zamanı çatıb". Musavat.com-un məlumatına görə, bu barədə Türkiyənin xarici işlər naziri Hikmət Çətin "Vestnik kavkaza" nəşrinə açıqlamasında Qarabağ probleminin uzanmasını şərh edərkən bildirib.

"Qarabağ məsələsində biz "dondurulmuş münaqişə" deyilən bir vəziyyətə çatmışıq. Bu gün hərbçilərin və dinc sakinlərin qanının tökülməməsi əlbəttə ki, yaxşıdır. Ancaq bu status-kvo problemi həll etmir. Ona görə də konfliktin yekun həllini tapmaq lazımdır. Bundan ötrü bütün şərtlər var, nədən ki, bizim BMT qətnamələrimiz var - hansı qətnamələr ki, Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalını təsdiqləyir və milyondan çox qaçqının öz evlərinə qayıtmasını tələb edir" - Çətin qeyd edib.

**XİN-in keçmiş başçısının sözlərinə görə, Ermənistan Azərbaycan torpaqlarını işğal eləməklə özü-özünə, öz iqtisadiyyatına və əhalisinə böyük ziyan vurub:** "Ermənistan bundan yalnız itirib və Azərbaycan rayonlarını işğal altında saxlamaqla itirməkdə davam edir. Azərbaycan isə bu zaman çox məharətlə situasiyaya nəzarət edir və mövcud problemlərini həll edir".

Daha sonra sabiq diplomat regionda daimi sülhü bərqərar eləməyə çağırıb. "Cənubi Qafqaz bu gün sülhə, əmin-amanlığa ehtiyac duyur. Rusiya, ABŞ və Türkiyə Dağlıq Qarabağ ixtilafının həlli üçün maksimum səylər göstərməlidir. Güclü Türkiyə gələcəkdə Dağlıq Qarabağ nizamlanmasının qarantlarından biridir. Axı o, Azərbaycanın müttəfiqidir. Ankara da səylər göstərməlidir ki, beynəlxalq birlik Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasının vacibliyini anlasın", - deyə keçmiş diplomat əlavə edib.



*****

**Bu arada işğalçı Ermənistanda bu ölkənin hələ də Rusiya imperiyasının ucqarı kimi qalmasının dərkindən dolayı təlaş güclənməkdədir. Musavat.com-un məlumatına görə, bu xüsusda 1 in.am nəşrinin siyasi şərhçisi Sarkis Arsruninin növbəti şərhi etiraflar baxımından ibrətamizdir və diqqət çəkir.**

**O yazır:** "Ermənistanı Rusiya imperiyasının muzeyinə çeviriblər: bir neçə gün öncə Oşakanda farslar üzərində rusların qələbəni qeyd eləmişdik. Dünən isə Gümrüdə rus-türk müharibəsində həlak olanların ruhu qarşısında baş əydik. Beləcə, Rusiya tərəfi bizim məmurların köməyi ilə Ermənistanı tarixin girdabına və bataqlığına sürükləyir. O tarixin ki, orada Ermənistan öz dövlətçiliyindən məhrum olmuşdu - rəsmən Rusiya imperiyasının tərkib hissəsi olmaqla. Rusiya özü Türkiyə və İranla dostluq edir, bizim şüurumuzda isə onların "vəhşi obrazı"nı təzələyir ki, özü haqda "xilaskar" imici yaratsın".

**Erməni ekspert ardınca acı etirafları davam etdirərək bildirir:** "Oşakan, Gümrü: bu tədbirlər təsadüfi deyil. Bunlar, necə deyərlər, Rusiyanın imperiya siyasətinin mədəni təzahürləridir. Bunlar bir daha Ermənistanı inandırmalıdır ki, o - imperiyanın periferiyasıdır və ən başlıcası - bu işğaldan çıxış yolu yoxdur".

**Arsruni bu yerdə Rusiyadan aralanma siyasəti aparan qonşu Gürcüstanı Ermənistanı nümunə göstərir:** "Qonşu Gürcüstanın hakimiyyəti artıq neçə ildir ki, Rusiya siyasətinin velikoderjav xarakterini başa düşüb və gürcülər mahiyyət etibarilə hesab edirlər ki, Rusiya, sovet işğalı ilə assosiasiya edilən istənilən hadisə rədd edilməlidir. Bizim hakimiyyət isə belə tədbirləri dövlət səviyyəsində təşkil eləməklə dövlət ideyasının özünü öldürür. Paralel surətdə Rusiya adları və ya bolşeviklərin adlarını daşıyan küçələrin adlarının dəyişdirilməsi təşəbbüsü də yenə məhz dövlət səviyyəsində "xaç yürüşü" kimi qiymətləndirilib. Biz mənəvi cəhətcə, psixoloji olaraq dövləti itirmişik və bu haqda danışmağa cəsarətimiz də yoxdur".

*****

Bu qəbildən acı etiraflar - Ermənistanın Azərbaycan ərazilərini işğal eləməklə, Rusiyanın ucqar əyalətinə və forpostuna çevrilməklə ən böyük pisliyi doğrudan da elə özünə etdiyini bir daha isbatlayır. İşğalçı gerçəkdən də Rusiyanın girovudur. Bu reallığın Azərbaycan üçün əsas üstünlüyü bəlkə də odur ki, Qarabağ məsələsində biz məhz Moskva ilə dil tapmalıyıq, çünki erməni tərəf həlledici söz sahibi deyil.

Rusiyanın isə əfsuslar olsun ki, konfliktin həllində real dönüş yaratmaq əzmi hiss olunmur. Kreml faktiki olaraq, özünün yaratdığı problemi aradan qaldırmaq istəmir, sadəcə, bu yolla Azərbaycanı və Ermənistanı nəzarət altında saxlamağa davam edəcəyinə ümid edir. Ancaq nə vaxtadək?

Sual da budur. Bir şey dəqiqidir ki, hər şeyin nə vaxtsa bir sonu gəlir. Bu sonu yaxınlaşdırmaq, Qarabağ "düyünü"nü, nəhayət, açmaq həm də konfliktin həllinə cəlb olunmuş Qərb paytaxtlarının - Vaşinqtonun, Parisin, Londonun, Brüsselin vəzifəsidir. Əks halda, onların da bölgədəki maraqları ziyan çəkəcək və çəkir.

Təəssüf ki, indi Moskva ilə yanaşı Qərb də "düyün"ə "düyün" vurmaqla məşğuldur - biləkdən, ya bilməyərəkdən...



## Erməni helikopterini məhv edən hərbçimiz ordudan getdi

**Erməni helikopterini məhv etməklə məşhurlaşan hərbçimiz ordudan gedib. Bu barədə femida.az - a İlkin Muradovun özü məlumat verib. O, Silahlı Qüvvələrdən getməsinin səbəbinin müddətinin bitməsi ilə əlaqəli olduğunu bildirib.**

"Bundan sonra mülki həyatda Vətənə xidmət edəcəyəm" - deyən çavuş bu illərdə orduda xidmət etməyindən qürurlandığını da bildirib.

İlkin Muradov iki bacının tək qardaşıdır. Əsgər kimi 2008-2010-cu illərdə xidmət edib. 2014-cü ildə yenidən hərbi xidmətə gəlib. İki ay kurs keçib zenitçi ixtisasına yiyələndikdən sonra çavuş rütbəsində xidmətə başlayıb.

Mahir zenitçi kimi yetişmiş çavuş İlkin Muradov həm kurs keçdiyi müddətdə, həm də sonrakı aylarda çox sevdiyi "İqla" daşınan zenit-raket kompleksindən sərrast atış qaydalarını mükəmməl mənimsəyib.

2014-cü ilin noyabrında düşmənin "Mi-24" tipli döyüş helikopterini məhv etdiyinə görə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu İlkin Məmməd oğlu Muradov müdafiə naziri, general-polkovnik Zakir Həsənovun əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib və qiymətli hədiyyə ilə mükafatlandırılıb. O, xalq arasında "Vur, komandir, vur!" ifadəsi ilə məşhurlaşıb. Bu xəbər yerli media ilə yanaşı, Türkiyə mediasında da böyük əks-səda doğurub. Düşmənin "Mi-24" tipli döyüş helikopterini vurulması 1995-ci ildən sonra ilk hadisədir.

Ailəlidir. Bir övladı var.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# Günəş tutuldu və açıldı - fəlakət olmadı, amma...

## Proses bitsə də “fəsadları olacaq” iddiasından dönməyən şəxslər qalmaqdadır

**Avqustun 21-də tam Günəş tutulması baş verdi. Mütəxəssislər qeyd ediblər ki, budəfəki tutulmada Günəş tacı dəfələrlə çox böyük olub. Tutulma müddəti 2 dəqiqə 40 saniyə, Yer səthində Ayın kölgəsinin eni isə 115 kilometr olub. Bakı vaxtı ilə saat 19:47-də başlayan proses saat 22:26-da maksimumda olub. Günəş tutulması saat 01:04-də sona çatıb. Azərbaycanda bu prosesi müşahidə etmək mümkün olmayıb. Qismən Qərbi Avropa və Cənubi Amerikanı əhatə edən nadir təbiət hadisəsini yalnız ABŞ sakinləri müşahidə edə biliblər. İlk dəfə olaraq ABŞ-ın bütün ştatlarını əhatə edən Günəş tutulmasına “Böyük Amerika tutulması” adı verilib. Tutulma zamanı Günəş aktivliyi dünyanın ən güclü teleskopu olan DKIST vasitəsilə izlənilib. ABŞ prezidenti Donald Tramp da Günəş tutulmasını paytaxt Vaşinqtonda Ağ Evin mavi otaq balkonundan izləyib.**

Qeyd edək ki, böyük Günəş tutulmasının ardından böyük fəlakətlər olacağı ilə bağlı iddialar var idi. Bu iddiaları isə bundan əvvəl Günəş tutulmasından sonra baş vermiş təbii fəlakətlərlə əlaqələndirirdilər. Alimlərin demək olar ki, böyük əksəriyyəti zəlzələlərin Günəşdə baş verən hadisələr, planetlərin paradı və digər hadisələrlə müəyyən əlaqəsi olduğunu bildirir. Bununla belə, qeyd olunur ki, Günəş tutulması haradasa, hansısa zəlzələnin baş verməsinə təkan verə bilər, amma zəlzələləri birbaşa həmin hadisəyə bağlamaq doğru deyil.

İnsanların içində yaranmış bir xof isə 1999-cu ildə tam Günəş tutulmasından sonra Türkiyədə baş vermiş dəhşətli Mərmərə zəlzələsi ilə bağlı idi. Məlum olduğu kimi, həmin il avqustun 17-də səhər saatlarında baş verən zəlzələ zamanı 18 mindən çox insan həlak olub, 24 min insan yaralanıb, 505 nəfər ömürlük şikəst qalıb. Beləliklə, budəfəki tam tutulmadan sonra yenə fəlakətlər, təyyarə qəzaları, partlayışlar, dövlət xadimlərinə sui-qəsdlər olunacağı haqda iddialar var idi.

Amma göründüyü kimi, sonuncu Günəş tutulması özü ilə fəlakətlər gətirmədi. Bununla belə, bəziləri hələ də Günəş tutulmasının ardından çox böyük fəlakətlərin olacağı iddiasında qalmaqdadır. Onlardan biri də Numerolog David Maededir. Onun nəzəriyyəsinə görə, Günəş tutulmasının ardından görünən “Nibiru” adlı planet Yer kürəsinə çarpılacaq və həyat bitəcək. Bundan əvvəl də bu cür iddialar irəli sürən alimin xəbərlərini NASA “internet saxtakarlığı” adlandırıb. Məsələ ilə bağlı heç bir dəlil olmadığını qeyd edən Nasa 2003-cü ildən bəri “Nibiru” və ya “Planet X” olaraq adlandırılan bir planetin dünyaya dəyəcəyindən danışıldığını, ancaq belə bir planetin var olmadığını bildirib. Alim Mede bütün reaksiyalara baxmayaraq özünü müdafiə etməyə davam edir. O, Günəşin əkizi olan “ikili ulduz”un 21 avqustda baş verəcək Günəş tutulmasından sonra 23 sentyabrda ortaya çıxacağını, oktyabr ayına qədər Yer kürəsi ilə toqquşacağını iddia edir.

Qeyd edək ki, növbəti Günəş tutulmasının 2 sentyabr 2035-ci ildə baş verəcəyi ehtimal olunur.

❑ Xalidə GƏRAY

**İndi Bakı və bir sıra regionlar ərəb turistlərin axınına məruz qalıb. Böyük əksəriyyət bu sıxlıqdan şikayət edir. Amma onlardan bir o qədər də çox adam mövcud durumdan razıdır. Alverin səviyyəsi artıb, gəlirlər çoxalıb. Taksi sürücüsündən tutmuş, kafe-restoran sahibinə, istirahət mərkəzi işçilərinə qədər ölkəyə valyuta axını var. Amma və lakin... Bütün turistik ölkələrdə, şəhərlərdə olduğu kimi turistləri aldatma, onlara qarşı dələduzluq etmək adiləşib. Bunu daha çox taksi sürücüləri edirlər. Qısa bir məsafə üçün dünyanın pulunu istəyənlər ordusu da demək olar buna. Kafe-restoranların bəzilərində isə ikili menyu var - yerlilər və xaricilər üçün. İkincidə tariflər xeyli yüksəkdir.**

# Turistləri təkcə biz aldatmırıq - Avropadakılar bizə dərs keçər

## Səyahətə çıxanlara qarşı dələduzluqların “xoruz səsi eşitməmiş” üsulları

“Yeni Müsavat” mövzunun aktual olduğunu nəzərə alıb, dünyada turistlərə qarşı tətbiq olunan dələduzluqlarla bağlı yazır. Hansı ölkədə nə cür yalançılar, adam aldadanlar var və onlara qarşı necə mübarizə aparmaq olar? Rusiyanın lifestories.com saytında bununla bağlı maraqlı bir dosye hazırlanıb.



### İsrarçı köməkçi

Hazırda bu üsuldan daha çox kasıb Afrika və ya Şərq ölkələrində istifadə olunur. “Köməkçilər” daha çox vağzallarda öz qurbanlarını gözləyirlər. Sonuncu tapılan kimi ona doğru qaçır, çamadanlarını götürür və onu lazımi yerə aparmaq üçün qır-saqqız səviyyəsində israr edirlər. Ümumiyyətlə, bu cür xidmətdən imtina etmək qeyri-mümkündür. Çünki yerli köməkçi turistin məlumatsızlığından istifadə edib, onu polis çağırmaqla hədələyə bilər. Nəticədə siz ancaq dələduza pul verməklə öz əşyalarınızı geri ala bilərsiniz.

Yeri gəlmişkən, bu sayaq şəxslər hotellərə də faizlə işləyirlər. Yəni onlar israrla turisti istədikləri hotelə aparır və hoteldən də faiz alırlar.

### Taksilərdəki sayğaclar

Turistlərin mütləq böyük əksəriyyəti taksilərdə aldadılır. İlk növbədə səfərin gedişində taksi sürücüsünün sayğacı “sıradan çıxa” bilər. Ona görə də siz məhz sürücünün göstərdiyi məbləği ödəmək zorunda qalırsınız.

İkincisi, taksidəki sayğac ən yüksək tarifə kodlanmış olur və orada qeyri-dəqiq məlumatlar yer alır. Bu cür dələduzluqlara görə də siz daha çox pul ödəmək zorunda qalacaqsız.

Üçüncüsü, şəhəri tanımadığınız üçün dələduz sürücü öz qurbanını bütün şəhər boyu və ya ən uzun marşrutlar üzrə gəzdirə bilər. Bununla da daha çox pul qazanmaq şansından yararlanır. Yeri gəlmişkən, bu cür aldatma üsulu daha çox Hindistanda populyardır.

### Kişi turistləri başdan çıxaranlar

Turistlərdən pul qoparmanın gizli üsulları olduqca çoxdur. Asiya və Latın Amerikasında bunu o qədər ustalıqla edirlər ki, turistin bəzən bundan ruhu da incimir. Məsələn, kişi turistlər barda, ya da klubda oturublarsa, onlara mütləq gözəl bir qadın (bir nəfər olmaya da bilər) yaxınlaşır və israrla onu da içkiyə qonaq etməsini istəyir. Bir-birinin ardınca ən bahalı içkilər içilir və birdən qadın yoxa çıxır. Bundan sonra böyük məbləğdəki qəbzlə turist baş-başa qalır və onu dərhal ödəmək zorundadır. Təbii ki, bu cür başdan çıxarıcı qadınlar həmin müəssisənin xeyrinə çalışır və bu üsulla da onların gəlirlərini artırır.

### Valyuta dəyişdirilməsi

Turistlərin bu cür aldadılmasını geniş yayılmış klassika adlandırmaq mümkündür. Və ümumən bu üsuldan turistik ölkələrdə milyonlarla insanı aldatmaq üçün istifadə edirlər. İlk növbədə sərfəli olmayan kurs üzrə pul dəyişirlər. Bundan sonra turistlərə saxta pul əsginazları təqdim edirlər. Dəyişdirilmiş pulu natamam şəkildə verirlər. Ona görə də ən yaxşı məsləhət valyutanı ancaq rəsmi bank filiallarında, ya da aeroportdakı valyutadəyişmə məntəqələrində dəyişməkdir. Baxmayaraq ki, sonuncuda hər zaman turistə sərfəli olmayan kursla pul dəyişimi edilir.

### Yalançı polislər

Yad ölkədə turistlər bütün sənədlərini oteldə saxlamağa üstünlük verirlər. Onlar bununla da sənədlərin itməsi versiyasını sıfırladıqlarını düşünürlər. Amma bunun əksini etmək, yəni sənədləri özü ilə aparmaq məsləhətdir. Belə ki, dələduzlar turistə yaxınlaşır, özlərini hüquq-mühafizə orqanı əməkdaşı kimi təqdim edərək, sənədlərini tələb edirlər. Əgər sənədləri yoxdursa, protokol tərtib edib, yerindəcə cəriməni ödəməyi təklif edirlər.

### Adam qucaqlayanlar - cibgirlər

Avropada tez-tez bu cür dələduzlarla qarşılaşmaq olar. Gözəl bir qız və ya yaraşıqlı bir oğlan turistə yaxınlaşaraq, onu qucaqlayır. İlk baxışda şirin və ya hansısa teleşounun çəkilişi kimi görünə bilir. Əslində isə bu şəxslər həmin an qucaqladıqları turistin bahalı zinət əşyasını, bahalı telefonunu və ya pulqabını oğurlamağa cəhd edirlər.

### Qulaq təmizləyənlər

Bu adamlara siz Hindistanda rast gələ bilərsiniz. Onlar sizi görən kimi “qulaqlarınızda dəhşətli bir çirk var və bu, olduqca təhlükəli ola bilər” deyirlər. Bundan sonra isə qulağınıza uzun bir çubuq salırlar. Daha öncədən hazırladıqları çirkli pambığı isə sizə nümayiş etdirəndən sonra etibarınızı qazanırlar. Sonra isə elə çimərliyin ortasında sizdən qulaq təmizliyi prosedurunu keçirməyə icazə istəyib, sonda 5 dollar alırlar.

### Pulsuz masaj

Bu xidməti təklif edənlər isə daha çox Balidə insanların qarşısına çıxır. Günəş vannası qəbul etdiyiniz vaxt sizə bir qadın yaxınlaşacaq və masaj təklif edəcək. O, bu masajın yanında manikür, pedikürün də hədiyyə olduğunu anons verəcək. Günəşin şüaları altında məst olmuş siz isə təbii ki, razılaşacaqsız. Amma prosedurun sonunda tələb olunan məbləğ masajdan aldığınız bütün zövqü burnunuzdan gətirəcək. Çünki normal qiymətlərdən 5-6 qat artıq məbləğ tələb edəcəklər.

### Qayığa bilet

Bununla da Baliyə gedənlər qarşılaşa bilər. Əgər siz Lembonqan, Qili və ya Lomboka getmək istəsəniz, qayığa bilet almaq zorundasız. Dələduzlar sizə ən yaxşı qayıq kampaniyası adından bilet satacaqlar. Amma qayığın yanına gələndə məlum olacaq ki, siz çox qaranlıq adamlardan bilet almısız. Çünki sizə deyiləcək ki, ya qayıqlar dolub, ya da qayıqların texniki problemləri var.

Nə etməli: Biletin həqiqi qiymətini öyrənmək və ya əməkdaşlıq etdiyiniz turizm agentliyindən bilet sifariş etmək. Əks halda, siz cəmi birtərəfli gediş üçün ikiqat artıq qiymət ödəməli olacaqsınız.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 175 (6789) 23 avqust 2017



# Türkiyə-Almaniya gərginliyi pik nöqtədə

## Ekspertlər hər iki dövlət arasındakı gərginliyin hələ bir müddət də davam edəcəyini düşünürlər

**Türkiyədə ötən ilin 15 iyulunda baş verən qiyamdan sonra gərginləşən Türkiyə-Almaniya münasibətləri son günlərdə daha da pisləşib. Türk əsilli alman yazıçısı Doğan Axanın rəsmi Ankaranın tələbi ilə İspaniyada həbsi və ardınca Almaniyanın tələbi ilə şərti olaraq azad edilməsi hər iki ölkə arasındakı narazılıqları pik həddə çatdırıb.**

Artıq rəsmi Berlin qardaş ölkəyə qarşı təzyiqləri artırmaq üçün hərəkətə keçib. Belə ki, Almaniya Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasına (AKP) və hökumətə yaxın şirkətlərə maliyyə dəstəyini dayandırmağı planlaşdırır. Axar.az "Döç Velle" istinadən xəbər verir ki, alman rəsmiləri bu çərçivədə Avropa İnvestisiya Bankı (AİB) tərəfindən verilən kreditləri yenidən nəzərdən keçirəcək. Türkiyənin da adekvat addımları gecikmir. Prezident Rəcəb Tayyib Ərdoğan gələn ay Almaniyada keçiriləcək kansler seçkilərində bu ölkədəki türkləri 3 siyasi partiyaya-Xristian Demokratlar, Sosial Demokratlar və Yaşıllar partiyalarına səs verməməyə çağırıb.

Qeyd edək ki, Almaniyada yaşayan 3 milyona yaxın türkdən 1.5 milyonu həmin ölkənin vətəndaşı olaraq seçki hüququna malikdir. Keçirilən sorğulara əsasən, 61.5 milyon seçici arasında bu nüfuzun səsləri nəticələrə ciddi təsir göstərməsə də, Almaniyada yaşayan türklərin seçim imkanlarını kiçildib. Ərdoğanın 3 siyasi partiyaya səs verməməklə bağlı çağırışından sonra türk əsilli vətəndaşlara seçmək üçün geriyə 3 siyasi partiya - Almaniya Solçular Partiyası, Azad Demokratlar Partiyası və Almaniya Alternativ Partiyası qalır. Solçular Türkiyəni ən çox və sərt şəkildə tənqid edən partiyalar sırasında gəlir. Azad Demokratlar isə hər fürsətdə Türkiyə ilə danışıqların dayandırılmasını tələb edir. Almaniya Alternativ Partiyası da İslam dini və xaricilərə qarşı olması ilə tanınır. Belə gərgin vəziyyətdə türk seçicilərin mövqeyi maraqla gözlənilir.

Ekspertlər hər iki dövlət arasındakı gərginliyin hələ bir müddət də davam edəcəyini düşünürlər. İstənilən halda bu gərginliyin hər iki ölkənin zərərinə olduğu qeyd olunur.

**Politoloq Elxan Şahinoğlu tarixən rəsmi Berlinin Türkiyəyə işinin düşdüyünü bildirdi:** "Vaxtilə strateji tərəfdaş olan Almaniya və Türkiyə faktiki olaraq hazırda düşmən ölkələrə çevriliblər. Bunun da əsas səbəbi Almaniya hakimiyyətinin yürütdüyü siyasətdir. Tarixən Almaniyanın hər zaman Türkiyəyə işi düşüb. Türkiyə Birinci Dünya müharibəsinə məhz Almaniyanın istəyi ilə qoşulub və nəticədə böyük Osmanlı imperiyası dağılıb. İkinci Dünya müharibəsindən sonra Almaniya yenidən Türkiyəyə minnətçi düşdü. Müharibə almanların insani itkilərini artırmışdı və Almaniyaya işçi qüvvəsi lazım idi. Milyonlarla türk Almaniyaya işləməyə getdi. Almanlar türkləri ən ağır işlərdə işlətdilər, sənayelərini dirçəltdilər. İndi üstündən illər keçdikdən sonra Almaniya Türkiyə əleyhinə ard-arda addımlar atır. Birincisi, Türkiyənin Avropa Birliyinə üzvlüyünün ən qatı əleyhidarı məhz Almaniyadır. İkincisi, Almaniya illərdir Türkiyə və türk əleyhidarlarının məskunlaşma yerinə çevrilib. Almaniya Türkiyədə ötən il çevriliş cəhdi həyata keçirmək istəyən və 200 nəfərdən çox insanın qətlinə yol açan Fətullah Gülənin şəbəkəsi üçün də ən rahat məskəndir. Üçüncüsü, Almaniya parlamenti "erməni soyqırımını" tanıyan qətnamə qəbul etdi. Almaniya bu ölkədə yaşayan 4 milyona yaxın türkü görməzlikdən gələrək Ermənistanın və dünyadakı erməni lobbisini sevindirdi. Dördüncüsü, Almaniya rəsmiləri türkiyəli rəsmilərin səfərlərinə qadağa qoydular. Almaniya kansleri Angela Merkel Türkiyənin indiki hakimiyyəti ilə bütün körpüləri yandırıb və inanmıram ki, yaxın illərdə münasibətlər normallaşsın. Çünki Türkiyə Cümhurbaşqanı Rəcəb Təyyub Ərdoğan nə qədər Almaniyadakı türklərə müraciətində hakim partiyaya səs verməməyə çağırsa da, Merkelin partiyasının sentyabr ayındakı parlament seçkisində qələbə çalması ehtimalı yüksəkdir. Bu isə o deməkdir ki, Merkel bir neçə il də ölkəsinin kansleri olacaq".

**Politoloq yaxın vaxtlarda münasibətlərin düzələcəyinə ümid etmir:** "Yaxın illərdə Almaniya kansleri Angella Merkel, Türkiyənin Cümhurbaşqanı Rəcəb Təyyub Ərdoğan olacaq. Bu isə o deməkdir ki, münasibətlərin normallaşacağını gözləmək problematikdir. Berlin nə PKK-çıları, nə də fətullahçıları Türkiyəyə təhvil verəcək. Almaniyalı rəsmilər biznesmenlərə Türkiyəyə yatırım qoymamağa, vətəndaşlarına isə Antalyada dincəlməməyi məsləhət görürlər. Buna baxmayaraq, alman kapitalı Türkiyədə özünü rahat hiss edir və bu böyüklükdə bazarı tərk etməyəcək".

❑ **Cavanşir ABBASLI**

# Tramp komandasındakı "yarpaq tökümü"nün ilginc səbəbləri

## "Ağ Ev sahibi komandasının üzvlərini ələcək kimi dəyişir"

**Amerika prezidenti Donald Tramp vəzifəyə gələn gündən etibarən onun komandasında istefalar dalğası baş verir. Son olaraq Donald Trampın strateji məsələlər üzrə müşaviri Stiven Bennona da Trampın komandasından ayrılıb.**

"Yeni Müsavat" strateq.az-a istinadən qısa müddət ərzində Trampı kimlərin tərk etdiyinin siyahısını təqdim edir. Öncə başlayaq Trampın seçki qərargahının rəhbəri Pol Manafortdan. Pol Manafort bir vaxtlar müşaviri olduğu keçmiş Ukrayna prezidenti Viktor Yanukoviçdən rüşvət almaqda ittiham edilər.

Ukrayna Milli Antikorrupsiya Bürosu üzə çıxarmışdı ki, Manafortun hesabına 12,7 milyon dollar pul köçürülüb. Manafort özü isə ittihamları rədd etmişdi.

Bu ilin fevral ayının 14-də milli təhlükəsizlik məsələləri üzrə müşavir Maykl Flin vəzifədən getdi. Flinin vəzifədən getməyini Tramp özü istəmişdi. Buna müşavirin Rusiyanın ABŞ-dakı səfiri Sergey Kislyakla danışıqlar aparması və bu barədə rəhbərliyi məlumatlandırmaması səbəb olmuşdu.

Flin rus səfirlə danışıqları barədə tam məlumat vermədiyi üçün Trampdan və vitse-prezident Mayk Pensdən üzr istəsə də, postunda qala bilmədi. O, Tramp prezident olandan sonra komandadan gedən ilk məmur oldu.

Bu il mayın 10-da Tramp Federal Təhqiqatlar Bürosunun (FTB) direktoru Ceyms Komini istefaya göndərdi. Kominin vəzifədən çıxarılması ötən il ölkədə prezident seçkiləri ərəfəsində Trampın seçkiqabağı kampaniyası üzrə köməkçiləri ilə rusiyalı rəsmi şəxslər arasında əlaqələri araşdırmaq üçün FTB tərəfindən aparılan təhqiqat fonunda baş verdi.

Komi bu vəzifəyə 2013-cü ildə prezident Barak Obama tərəfindən 10 il müddətinə təyin edilmişdi. Onun vəzifədən çıxarılmasının dəqiq səbəbi açıqlanmasa da, Tramp bildirdi ki, Federal Təhqiqatlar Bürosuna inamı bərpa etmək üçün yeni lider lazımdır.

Mayın 30-da daha bir istefa xəbəri yayıldı. Bu dəfə postundan uzaqlaşdırılan Ağ Ev Aparatının kommunikasiya direktoru



Mayk Dubke oldu. Dubke istefa ərizəsini hələ mayın 18-də təqdim etmişdi.

"Politico"nun yazdığına görə, Dubke də postunu Rusiya ilə şübhəli əlaqələrinə görə itirib. Hazırda Ağ Evdə Dubkeni Sara Sanders əvəz edir.

İyunun 6-a ABŞ-ın Çindəki müvəqqəti işlər vəkili Devid Renk istefa verdi. Renk bu qərarını Trampın iqlim sazişindən çıxması ilə əlaqələndirdi.

İyulun 22-də Ağ Evin sözçüsü Şon Spayser istefa verdi. "The New York Times" qəzeti yazdı ki, istefaya səbəb Donald Trampın maliyyətçi Entoni Skararuççini Ağ Evin kommunikasiya üzrə direktoru vəzifəsinə təyin etməsi olub. Spayser bildirmişdi ki, Tramp bu qərarı ilə ciddi səhvə yol verir.

Və nəhayət, bir neçə gün əvvəl Donald Trampın qanunvericiliyin tənzimlənməsi üzrə xüsusi müşaviri Karl Aykin də istefa verdi. Aykin bildirdi ki, istefa verməyinə səbəb vəzifəsi ilə bağlı yaranan partiyadaxili mübahisələrdir.

Ağ Evdən qaçış bununla başa çatmadı. Şarlotvillada irqçilərlə bağlı son olaylardan sonra Ağ Evin nəzdindəki Sənaye Şurasını bir neçə nüfuzlu və nəhəng şirkət də tərk etdi. Postlarını təhvil verənlər arasında "Intel" şirkətinin baş direktoru Brayan Krjaniç, əczaçılıq şirkəti "Merck & Co"nun rəhbəri Kennet Frezir və "Under Armour Inc." idman geyimləri və aksesuarları şirkətinin rəhbəri Kevin Plank da vardı.

Ekspertlər iddia edirlər ki, daha öncəki prezident Barak Obamanın dönəmində ümumən bu qədər məmur istefa verməmişdi.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bu mənzərənin səbəbləri barədə danışdı. Müsahibimiz öncə xatırlatdı ki, Amerikanın uzaq və yaxın siyasi tarixini pis bilmir və son 100 ildə bu ölkənin dövlət başçılarının siyasi karyeralarına az-çox bələddir. O, bu biliklərindən çıxış edərək, prezident Donald Trampın sözün həqiqi mənasında fenomen olduğu qənaətinə gəldiyini vurğuladı:** "Amerikanın ikinci belə prezidentini xatırlamıram. Trampla heç kim işləmək istəmir, Ağ Ev sahibi komandasının üzvlərini ələcək kimi dəyişir. Onsuz da Ağ Evdə peşəkar qıtlığı var idi, olanlar da ya şefləri ilə yola getmirlər, ya da öz aralarında didişir, mətbuat səhifələrində bir-birilərinə atmaca atırlar. Trampın səhvləri də çoxdur. Məsələn, Amerikanın şəhərlərinin birində ağ rasistlərlə antifaşistlər arasında toqquşma oldu, bir nəfər həlak oldu. Tramp irqi millətçiliyi tənqid etmək əvəzinə hər iki qüvvə arasında faktiki bərabərlik işarəsi qoydu. Onun sosial şəbəkədə yazdığı bir neçə cümlə iş adamlarının ondan uzaqlaşmasına səbəb oldu. Tramp məcbur qalıb Ağ Ev yanında iqtisadi şuranı buraxdı".

**E.Şahinoğlu Trampın yol verdiyi daha bir yanlışa da toxundu. Dedi ki, Rusiya amerikalı diplomatları deport qərarı verdikdən sonra Tramp sosial şəbəkədə Putinə minnətdarlıq məktubu yazıb. Həmin məktubda Amerika prezidenti "yaxşı ki, onları siz çıxartdınız, yoxsa büdcəyə qənaət məqsədilə mən onları işdən çıxarmaq məcburiyyətində qalacaqdım" yazmışdı:** "Bu bir cümlə ilə Tramp yüzlərlə amerikalı diplomatı və konqresmeni özünə qarşı çevirdi. Ümumiyyətlə, çox açıqlama vermək, dəqiqədə sosial şəbəkədə fikir bildirmək Trampa baha başa gəlir. Siyasi naşılıq özünü göstərir. Vəziyyət dəyişməsə, Tramp prezidentliyinin 4 ilini çox çətinliklə başa çatdıracaq, əgər başa çatdıracaqsa... Üzvü olduğu Respublikaçılar Partiyası da ondan üz döndərməyə yaxındır. Trampı dünyanın hansısa nöqtəsində yalnız uğurlu hərbi kampaniya xilas edə bilər. Ancaq Amerikanın son illər hansı hərbi kampaniyası uğurlu olub ki? İraqda və Liviyada diktatorları devirsələr də, bu ölkələr terrorizmin və məzhəb savaşlarının yuvalarına çevrildi, Əfqanıstana daxil oldular ki, "Taliban"ı zərərsizləşdirsinlər, təşkilat bu günə qədər ölkənin əksər hissəsinə nəzarət edir".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 175 (6789) 23 avqust 2017

**Bakıda 5 yaşlı uşağını boğaraq öldürməkdə təqsirləndirilən Nazilə Qulubəyovanın cinayət işi üzrə məhkəmə prosesi keçirilib. Nazilə Qulubəyova ifadə verməkdən imtina edib. O, özünü pis hiss etdiyini söyləyib. Daha sonra N.Qulibəyovanın qardaşı ifadə verib.**

O, Nazilə Qulubəyovanın əvvəllər xəstəliyinin olmadığını deyib: "Mən evə gələndə artıq hadisə baş vermişdi. Orada FHN əməkdaşları və Nazilənin həyat yoldaşı Rüstəm də var idi. Polis də gələndən sonra qapını sındırdılar. Rüstəm çox həyəcanlı idi. İçəri daxil olandan sonra həkim də çağırıldı. Uşaq divanın üzərində uzanıqlı vəziyyətdə idi".

O, bacısının həmişə özünə qapandığını qeyd edib: "Hadisədən sonra bildim ki, o, sektaya, dini təriqətlər olan yerlərə gedib". Nazilə Qulubəyovanın qardaşı ifadə verən zaman o, əyləşdiyi yerdən qeyri-adi hərəkətlər edib.

Qeyd edək ki, dəhşətli qətli törədən 1983-cü il təvəllüdlü Nazilə Qulubəyova Bakıda dini təriqətlərdən birinin üzvü olub. O, 5 yaşlı oğlu Fərid Quluzadəni boğaraq qətlə yetirib. Hadisə paytaxtın Yasamal rayonu D.Bünyadzadə küçəsi ev 15 ünvanındakı mənzillərindən birində baş verib. Orada yaşayan 2011-ci il təvəllüdlü Fərid Quluzadənin meyiti aşkar olunub. Uşağı xristian yönümlü təriqətin üzvü olan anasının öldürdüyü məlum olub. Nazilə Qulubəyova "bəd ruhları çıxartmaq" üçün oğlunun ağız nahiyəsinə əski parçası tutaraq sıxıb. Nəticədə azyaşlı ölüb.

# Dünyanın ən təhlükəli dini sektaları barədə bilmədiklərimiz

## Bu sektalara üzv olanlar qatilə, terrorçuya və manyaka çevrilir





### İnsanları xərçəng olduğuna inandırıb soyan dini sekta

"Yeni Müsavat" isə xatırladır ki, buna bənzər bir qətl ötən ilin oktyabrında da baş verib. Həmin vaxt da bir ana 5 yaşlı oğlunu boğaraq öldürmüşdü. Daha sonra mətbuatda hadisəni törətmiş şəxsin "Yahova şahidləri" sektasının üzvü olduğu, sosial şəbəkələrdə isə onun satanistlərə xidmət etdiyi barədə iddialar irəli sürüldü.

Zaman-zaman yerli və beynəlxalq mediada dini sektalara qoşulandan sonra psixologiyası korlanan, qatilliyə qədər gedən insanların hərəkətləri barədə məlumatlar yer alır. Xatırlayırsızsa, iki il öncə Bakıda yaşayan şəkili bacılardan birinin digərini qətlə yetirməsi və bunu "mənə yuxarıdan vəhy gəldi ki, onu incitmə, birbaşa öldür" kimi izah etməsi də mediada ciddi müzakirə mövzusu olmuşdu. Bəli, təhlükəli dini sektalar və onların yaratdığı fəsadları çox adam bilmir və görmür. Biz isə xarici mediaya istinadən dünyanın ən təhlükəli dini sektaları barədə arayış hazırladıq.

Öncə başlayaq "No-po-Na-na" sektasından. Yapon neobuddist sekta tərcümədə "işığın öyrənilməsi" anlamına gəlir. 1987-ci ildə əsası qoyulub. Sektanı yaradıcıları tərəfindən belə bir şayiə yaradılmışdı ki, guya onların müəllimi Xogen Fukunaqa magik xüsusiyyətlərə malikdir və insanın eyni zamanda keçmişini, gələcəyini onun ayaqlarından oxuya bilir.

Sektanın ən uğurlu dönəmlərində onun üzvlərinin sayı 30 min nəfərə çatmışdı. Amma sektanın rəhbərliyi dələduzluqla məşğul idi. Belə ki, onlar bəzi insanlara xərçəng kimi ölümcül xəstəliklər diaqnozu qoyur və onları təşkil etdikləri xüsusi "təmizləmə tədbirlərinə" dəvət edirdilər. Belə tədbirlərin hər seansı isə 900 dollar idi.

Bu məsələ böyüyəndən və sektanın rəhbərliyi dələduzluq maddəsi ilə məhkəmə qarşısına çıxandan sonra ona 1 milyon dollara yaxın cərimə cəzası müəyyənləşdirildi.

### Yadplanetlilərin adı ilə manipulyasiya edənlər dəstəsi

Raelçilər. Bu sekta ötən əsrin 70-ci illərində Klod Varilov tərəfindən yaradılıb. Onun yaradıcısını, keçmiş idman şərhçisi olan Rael kimi daha çox tanıyırdılar. Bu şəxs 1973-cü ilin 13 dekabrında bəyan etdi ki, Fransanın mərkəzindəki sönmüş bir vulkanda yadplanetlilərlə qarşılaşıb və onlardan biri özünü Allah adlandırıb.

Elohim adlı yadplanetli ona deyib ki, Yer üzərindəki həyat gen mühəndisləri tərəfindən yaradılıb. Bundan başqa, klonlaşdırmada da onların xidməti var. Sektanın rəhbəri eyni zamanda seksual azadlığı təbliğ edirdi ki, bu da özü ilə ciddi əxlaqsızlıqları da gətirirdi.

Rusiyada populyarlaşmış "Xristosun Kilsəsi" sektasının əsas prinsipi isə o idi ki, həqiqi xristian mütləq hər şeyi çatdırmalı, yer üzündə hər gün daha çox çiçəklənməli və dünyanın xilası üçün çalışmalıdır. Sekta üzvləri informasiya vakuumunda olurlar. Belə ki, onlar televiziya, radio və mətbuatdan tamamən özlərini təcrid edirlər. Onların böyük əksəriyyəti valideynlərini də atır. Belə ki, sekta daxilində belə bir sistem formalaşıb ki, onların düşüncəsini qəbul etməyən insanlar şeytanın əlində bir silahdır. Bu sektanın toplantıları daha çox stadionlarda keçirilir və formatına görə ekstrasenslərin yığıncağını xatırladır. Sektaya üzv olanın daha sonra ənənəvi üsullarla müalicəsi mümkün deyil. Çünki bir çox hallarda ondan qopmaq istəyən insanları öldürürlər.

### Bu sektanın 1000 üzvü isə eyni gündə intihar edib

"Xalqlar Məbədi" - Havay adalarında yerləşən bu sekta dünyanın ən təhlükəli dini sektası sayılır. 1978-ci ildə burada baş verən hadisə bütün dünyanı şoka saldı. Şahidlər deyir ki, sektanın rəhbəri Cim Consun çıxışlarına toplaşan adamlar mitinq iştirakçılarını xatırladırdılar. Onun bir sözünü iki etməyə kimsə cəsarət etmirdi.

1978-ci il noyabrın 18-də Cons çıxış edərkən Amerika bayrağına işarə edərək demişdi: **"Fanatik, irqçi, imperialist millətin nümayəndələri, vaxt gələcək hesablaşacağıq".** Həmin gün 1000-dən çox ABŞ vətəndaşı (sekta üzvü) kütləvi intihar etmişdi.

Ümumilikdə dünya üzrə 3200-dən çox saentologiya kilsəsi, missiyaları, qrupları və sosial hərəkatı fəaliyyət göstərir. 154-dən çox ölkədə bu hərəkatın tərəfdarları var. Bu nəzəriyyənin yaradıcısı amerikalı fantastik əsərlər yazıçısı Lafayet Ronald Habbarddır. Gəncliyində dənizçi və polis olmuş Habbard sonradan universitetə daxil olub, fizika və astronomiyanı öyrənib. Daha sonra jurnalist və romançı kimi tanınıb, 130-dan çox əsər yazıb. 1970-80-ci illərdə saentologiya elmi üzrə məruzələrə başlayıb. Saentologiya tərəfdarları 1954-cü ildə dini icma - kilsə yaradıblar, yəni Ron Habbardın taleyi bir qədər də azərbaycanlı filosof Asif Əfəndiyevinkinə bənzəyib.

Bu kilsənin tərəfdarları Tanrını sonsuzluq kimi qəbul edir, Onun Yüksək Varlıq və Yaradan kimi də adlandırıldığını bildirirlər. Onların fikrincə, insan əbədidir və tarix boyunca forma dəyişdirərək mövcud olur. MDB məkanında saentologiya hərəkatı ilk dəfə 1984-cü ildə peyda olub, onda sovet rejiminin qadağalarına baxmayaraq, Leninqrada, yəni indiki Sankt-Peterburqda bir qrup adam saentologiya təlimini öyrənməyə başlayıb. 1980-ci illərin sonlarında oxşar qrup Moskvada da yaranıb. 1990-cı illərin əvvəllərində bu qruplar birləşərək, Rusiyada saentologiya kilsəsi təsis ediblər. Kilsə bütün MDB məkanında rus dilində saentologiya ədəbiyyatı yaymaqla məşğuldur. Lakin milli dillərdə də kitablar nəşr olunur. Habbardın əsərlərinin tərcümə olunduğu 50-dən çox dil arasında Azərbaycan dili də var. Bakının çeşidli yerlərində - kitab pasajında, keçmiş Kitab evinin yanında bukinistlərdən saentologiya barədə yetərincə kitab tapmaq olar.

Saentologiya həvəskarları əsasən tələbə-gəncliyi təmsil edirlər. Saentologiyanın geniş yayılmasına baxmayaraq tərəfdarı azdır, dünya üzrə toplam sayları 8 milyondan çox deyil. Lakin buna baxmayaraq, zaman-zaman dünyanın bir çox ölkələrində artıq saentoloqlara qarşı radikal addımlar atılır və kilsələri bağlanılır.

Almaniya elitasını saentologiyanın məhz "ruh təmizləmə" prosedurları və cəlbedici vədləri qorxudur. Bu ölkənin "Koubrqer taqeblat" qəzeti saentologiyanın iradəcə zəif, təsir altına tez düşən insanları tora saldığını bildirir: **"Təəccüblü deyil ki, xüsusilə gənc insanlar təşkilatın qurbanına çevrilirlər. Psixoloji təsir üsulları ilə insanları asılı, manipulyasiyalara uyan hala salırlar. Şübhəli üsullar istifadə edən bu yalançı din bizim demokratik cəmiyyətin əsaslarından çox uzaqdır".**

Almaniyanın ailə, gənclik, qadınlar və yaşlılar üzrə naziri Ursula fon Lyayen ehtimal edir ki, saentologiya "çox vaxt insanları psixoloji və maliyyə asılılığına salır".

### Ağdərililərlə qaradərililər arasında müharibə elan edən sekta

**"Menson" sektası:** Menson Yer üzünün bu günə qədər görmüş olduğu ən böyük manyak, ağılsızdır və özünü peyğəmbər elan edib. O, ağ və qara dərili insanlar arasında müharibə elan edib. Bəyanatlarında isə bildirib ki, ancaq bu iki qütbdəki insanlar arasında müharibə bitsə, dünya tamamən təmiz olacaq və bu, ona dünya üzərindəki hökmranlığa gedən yolu açacaq.

Çarlz Menson 1969-cu ildə, bir neçə qətldə ittiham olunub. Bu qətllərin sırasında polyak aktrisa Şeron Teytin həyat yoldaşı, rejissor Roman Polanski də olub. Məhkəmənin hökmünə görə, o, qaz kamerasına salınmalı idi. 1977-ci ildə Kaliforniya məhkəməsi ona ölüm hökmü elan edib. Ölüm hökmünü daha sonra ömürlük həbs cəzası ilə əvəz ediblər.

### "Ailəni unut, başına torba keçirib intihar et..."

**"Heaven's Gate" sektası** isə 1975-ci ildə ABŞ-da, Marşal Eppluayt və Bonni Nettlz tərəfindən yaradılıb. 1977-ci ildə Marşal öz sektasının 39 üzvünü intihara sövq edib. Buna səbəb kimi isə Yer kürəsinin Heyla Bolp kometası ilə toqquşması ehtimalı olub. O, təriqət üzvlərini inandırıb ki, onlar Yer kürəsini tərk edərək, kosmik gəmidə səyahətə gedəcəklər. Sekta üzvləri əllərinə əlcək, başlarına papaq taxıb gəzirdilər ki, hətta təsadüfən də olsa bir-birilərinə toxunmasınlar, toxunanda şəhvani hissləri oyanmasın. Bundan başqa, onlar bir-birilə məktub vasitəsilə ünsiyyət qururdular. Ailəni isə birdəfəlik unutmaq lazım idi.

Hər kəs sekta daxilində "izləyici partnyor"a sahib idi və öz növbəsində də kimisə izləyirdi. İnternet dünyanı ağuşuna alan illərdə isə bu sektanın xüsusi saytı yaradıldı. Dini ayinlərdən öncə onlar limon şirəsi içirdilər. Bununla da bədənlərini "təmizləyirdilər". Onlar eyni zamanda düşünürdülər ki, genişmiqyaslı intiharların da internetin populyarlığı ilə bağlıdır. Sektanın hər üç üzvü veb dizayner olaraq çalışırdılar.

26 mart 1997-ci ildə Kaliforniya yaxınlığında sektanın 39 üzvünün cəsədi tapıldı. Onların bədəni pudinq və meyvəli jele ilə örtülmüşdü. Onlar intihardan öncə çoxlu araq içib, daha sonra isə başlarına torba keçirərək, yuxuda ölməyi qət etmişdilər. Bu 39 nəfərin hər biri eyni cür geyinmişdi - qara köynək, qara şalvar və qara idman ayaqqabısı.

"Aum Sinrike" dini sektası - bu sektanı da Yaponiyada yaradıblar. Bu sektanın fəlsəfəsi buddizm əsasında yaranıb. "Aum Sinrike" Yaponiyada bir neçə terror aktı hazırlayıb və həyata keçirib. Bundan başqa, Tokio metrosunda partlayış törədib. Sonuncunun nəticəsində 12 nəfər dünyasını dəyişib. Məhkəmə onunla bağlı 17-yə qədər cinayət işi açıb və 2004-cü ildə onun haqında ölüm hökmü verilib.

❑ **Sevinc TELMANQIZI**

**Elan**

**Qurbanov Rəşad Əliağa oğlunun adına olan Xətai rayonu Gəncə pr., ev 105, mən.74 ünvanın kupçası itdiyi üçün etibarsız sayılır.**

***

**Dünyamalıyev Yaşar Useyin oğlunun adına olan Nərimanov rayonu E.İsazadə küçəsi, ev 2 A, mənzil 15 ünvanının kupçası itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 175 (6789) 23 avqus 2017




# “Qarabağ”, sən qapını,









# Allah səni qorusun!

## Çempionlar Liqasının qrup mərhələsinə düşmək üçün “Kopenhagen”lə bugünkü oyunda Azərbaycan təmsilçisinə 0:0 bərabərlik də yetərlidir...

**Bu gün “Qarabağ” Danimarkada son illərin ən mühüm oyununa çıxır. Bakı vaxtı ilə saat 22:45-də başlayacaq “Kopenhagen”- “Qarabağ” qarşılaşmasında Danimarka təmsilçisi qalib ayrılarsa, bu onlar üçün o qədər də toy-bayram olmayacaq. Çempionlar Liqası qrupuna yenidən düşdükləri üçün ciblərinə bir az daha çox pul gələcək. Amma “Qarabağ” qalib gələrsə, Azərbaycan və ölkəmizi sevənlər ürəkdən sevinəcək. Bakıda bəlkə toy-bayram da olacaq.**

Səmimi deyirəm, “”Qarabağ" ÇL qrupuna düşərsə, nə qədər qazanacaq?" başlıqlı xəbərləri oxumadım. Dünya da, futbol da maddiyyat üzərində qurulub, amma “Qarabağ”ın məsələsi indilkidə pul deyil. Əminəm ki, bunu klub üzvləri də, rəhbərlik də hamıdan yaxşı anlayır. “Qarabağ” Ermənistana və bizim uğurumuzu istəməyənlərə elə bir gözdağı verə bilər ki, bunu hətta qrup oyunlarında “Real”a uduzsaq belə (halbuki “Qarabağ”ın daha yaxşı oynayacağı gözlənilir) ləzzətlə yaşaya bilərik. Nə edək ki, futbol həm də kiçik siyasət meydanıdır, bizi də, “Qarabağ”ı da salıblar onun içərisinə. Bu da bizim taleyimizə biçilmiş belə bir azarkeşlikdir...

Ermənilər Bakıdakı 1:0-lıq qələbədən sonra görürsüz nə qarın ağrısına düşüblər? İspaniyanın hətta hansı komandanın hansı oyunçusu hansı maykanı geyinib-soyunduğundan xəbər verən məşhur nəşri guya ki, Ağdam klubunun bu vaxta kimi ermənilərə heç bir dəxli olduğunu bilməyib? Üzrləri başlarına dəysin, “Qarabağ”ın heç olmasa son oyunun videoyazısına baxın da ay “Marca”nəşri...Hələ qrupa düşməmiş başlayıblar qaralamağa. Deməyimiz budur ki, “Qarabağ” Çempionlar Liqasına düşmək şansını necə olursa-olursa bu axşam qorumalıdır. “Qarabağ” Azərbaycanı o liqada təmsil etməyə ən çox haqq etmiş klubdur, bu ilkə də onlar imza atmalı. Mən Qurban Qurbanovun oyun qurmaq taktikasına çox güvənirəm, bu gecə “Qarabağ” qapısını qoldan qorumalıdır, hətta imkan düşsə, bir top da vurmalıdır. Bakıdakı qarşılaşmaya Rusiyanın “Futbol-3” kanalından baxdım, sonra iki dəfə də videoyazısını verdilər. Rus hakimiyyəti Qarabağ məsələsində bizim yanımızda deyillər, amma şərhçilər kifayət qədər obyektiv olmağa çalışırlar. Oyunu şərh edən “Qarabağ”ın “Kopenhagen”i keçmək gücündə olduğunu bir neçə dəfə təkrar etdi və bugünkü oyun ərəfəsi yaddaşımda nədənsə elə o cümləri təkrar-təkrar “fırladıram”...

***

“Kopenhagen”lə qarşılaşacaq “Qarabağ” iki gündür ki, Danimarkadadır. Danımarkalıların oyun ərəfəsi “boylarından uca” danışmaları gözlənilən idi, amma bunlar nəsə çox yekə danışırlar.

İş o yerə çatıb ki, “Kopenhagen” 19 il əvvəl - 1998-ci ildə Danimarkada keçirilən oyunun videosunu yayıb. Bakıdakı görüş ərəfəsi biz də o oyunları xatırlatmışdıq. UEFA Kuboklar Kuboku turniri adlanan yarışın birinci mərhələsində “Qarabağ” “Kopenhagen”ə Bakıda 0:4, səfərdə 0:6 hesabı ilə uduzduğu oyunları xatırlatmaq danimarkalıların heç də arxayın olmadıqlarına işarədir. Yaxşı ki, özləri də bunu gizlətməyiblər. “Bu dəfə ”Qarabağ"a qalib gəlmək asan olmayacaq. Bunun üçün sizin dəstəyiniz lazımdır" - deyə, klub videoyazının sonunda bildirilib.

Danimarka klubu tez-tez “Qarabağ”ı bundan əvvəlki rəqibləri “Vardar”ilə müqayisə edirlər. Guya bizim xətrimizə dəyəcəklər. (Klubun adı “Vartan” olsaydı, xətrimizə dəyərdi). Danimarkalılar “Vardar”a öz meydanlarında uduzmuşdular, Danimarkada isə mərhələ keçən “Kopenhagen” oldu. “Vardar” klubunu qoy “Fənərbaxça”lılar düşünsün, çünki Makedoniyada qapılarına iki top vurublar və İstanbul təmsilçisini Avroliqadan kənarda qoya bilər.

Danimarkalılar “Qarabağ”dan yüzdə-yüz çəkinirlər. Bakıdakı oyundan əvvəl də yazmışdıq ki, bu klubun Çempionlar Liqasının qrupunda dördü dəfə oynamasına baxmayaraq, keçilə biləcək rəqibdir. “Kopenhagen” mənə Bakıdakı oyunları ilə hətta Moldovanın “Şerif”indən zəif rəqib kimi göründü. Bircə boylarının hündürlüyündən başqa heç bir “boy” göstərə bilmədilər. “Qarabağ”ın oyun taktikası yaxşı alındı, heç kim xüsusi olaraq fərqlənmədi, amma komanda oyunu qalib gəldi. Rəqib topsuz qoydular, bunu bu gecə də edə biləydilər kaş...

Baş məşqçisi Stole Solbakken “Qarabağ”ın üstün durumda olmasını qeyd etməklə yanaşı, komandasının mərhələ adlamaq şanslarının olduğunu da bildirib: “Adətən bu mərhələnin oyunları çətin olur. İlk görüşdən sonra ”Qarabağ"ı favorit adlandırmaq olar. Amma unutmayaq ki, bizim də şansımız var. Çərşənbə günü “Qarabağ” qapalı oyuna üstünlük verəcək. Ancaq biz öz meydanımızda oynayırıq, tribunalar dolu olacaq. Azarkeşlərin dəstəyi ilə daha artığına nail olmaq niyyətindəyik".

Klubun serbiyalı oyunçusu Pavloviçin fikrincə isə “Qarabağ”ın müdafiə xətti elə də güclü deyil: “Sadəcə, Bakıda bir o qədər də təzyiq etmədik. Yarımmüdafiə xətti isə çox güclüdür. Həmçinin Bakıda stadionda olan möhtəşəm atmosfer onlara yaxşı, bizə pis təsir etdi. Növbəti oyunda daha diqqətli olub, dərin düşünüb oynamalıyıq. İlk oyunda qeydə alınan 1:0 hesabı bizim üçün maneə deyil. Biz bunu ötən tur ”Vardar"la oyunlarda sübut etmişik". Yenə bu “Vardar”...

Danimarka superliqasında “Senderyuske” ilə gərgin matçdan 3:2 qalib ayrılan “Kopenhagen” daha “qaza gəlib”. “Qarabağ”la qarşılaşmada da belə oynayarsa, mərhələ adlayacaqlarını deyirlər. “Qarabağ”da çempionata uğurlu başlayıb və klubun motivasiyası yerindədir. Qalır bu motivasiyanı bu gecə meydanda da göstərmək...

***

“Kopenhagen” - “Qarabağ” oyununu “Marca”nın “həmyerlisi” İspaniya Futbol Federasiyasından Alberto Undiano Malyenko idarə edəcək. Ona Roberto Alonso və Raul Kabanero köməklik edəcək. Bu gecə “Qarabağ”ı separatçılarla qarışdıran ispanlara da dərs vermək zamanıdır demək...

Biz sənə inanırıq “Qarabağ”! “Qarabağ”, sən qapını, Allah səni qorusun!

❑ **Nazìm SABÌROĞLU**





YENİ MÜSAVAT

Son səhifə

N 175 (6789) 23 avqust 2017

# Qrimin köməyi ilə polisdən gizləndi

Amerikada narkotik qaçaqmalçılığında ittiham olunan şəxs polisdən gizlənmək üçün qrimin köməyi ilə özünü qoca kişiyə çevirib. Bu barədə lenta.ru saytı xəbər verib. Şon Miller adlı şübhəli şəxsin evinə gələndə polis orda ancaq bir nəfər görüb. Həmin şəxs isə axtarışda olan şəxsə heç cür bənzəməyib, çünki olduqca yaşlı olub. Amma araşdırmanın gedişatı zamanı polislər anlayıb ki, elə qoca qiyafəsində olan şəxs 31 yaşlı Millerin özüdür ki, var. Onun üzündən maskanı cırıb özünü də həbs ediblər. Alkoqol, partlayıcı maddələr, qanunsuz silahla mübarizə bürosu öz twitter səhifəsində Millerin qrimdə və qrimsiz fotolarını paylaşıb. Axtarış zamanı isə evdə iki silah, 30 min dollar məbləğində pul tapılıb. Vəkilinin sözlərinə görə, özü günahını boynuna almayıb və məsum olduğunu iddia edib.





## Keşiş kilsədə mobil telefonlara qarşı səsboğucudan istifadə edir

İtaliyanın Neapol şəhərindəki kilsələrdən birində mobil telefon zənglərinin səsini azaltmaq üçün qurğu quraşdırılıb. Türkiyə mətbuatının yazdığına görə, bunu yerli keşiş Mikele Madonna edib. O, kilsəyə gələnlərin mobil telefondan istifadə etmələrindən təngə gələrək bu addımı atıb. Keşişin sözlərinə görə, son zamanlar kilsəyə gələnlər hətta dəfn mərasimində telefonla danışmağa başlayıblar. M.Madonna səsboğucunu yerli mağazadan alıb və polisə belə avadanlığın quraşdırılmasının qanuni olduğunu izah edib.

## Buğaları öldürmək üçün xüsusi dərs var

Fransanın Languedoc-Roussillion bölgəsindəki "French Tauromachy Center" adlı məktəbdə uşaqlara buğalarla döyüşməyin sirləri öyrədilir. 1982-ci ildə yaranan məktəbdə 1000 uşaq "təhsil alır". Uşaqlara buğaları əsəbiləşdirməyin yolları öyrədilir. Qılınc zərbələri ilə buğa öldürməyi öyrənən uşaqlar samandan hazırlanmış buğaların üzərində məşq edirlər. Buğa öldürmək üzrə təhsil alan 10 yaşlı Nino adlı uşaq həftədə iki dəfə buğa öldürməyi öyrənir. Dostları onu bacarığına görə Əl Nino adlandırırlar. Məktəb hər il 20 matador yetişdirir. Məzun olan uşaqlar buğa döyüşlərinə çıxaraq məharətlərini göstərirlər. Ailələri isə uşaqlarını təhlükəyə atdıqlarını düşünmədən onlarla fəxr etdiklərini deyirlər.

# Bu pəhrizlə arıqlamaq istəyənlər... dişsiz qalır

**Yeni dəbə minən pəhriz növləri dişləri xarab edir, ağızdan pis iy gəlir. Bu gün dünyada meyvə şirəsi və ya çiy qida ilə pəhrizlər daha çox yayılıb.**

Orqanizmdə bu cür məhdudiyyətlər insan üçün təhlükəlidir. Milli.az Rusiya mətbuatına istinadən bildirir ki, bu cür pəhriz növləri Hollivudda daha çox populyardır. Selma Hayek və Keyt Hadson kimi məşhurlar bu cür pəhrizlərdən istifadə edirlər.

London stomatologiya klinikasının direktoru, doktor Patel bildirir ki, bu cür pəhrizlər dişlərə qarşısıalınmaz ziyan vurur. alnız meyvə şirələrindən ibarət olan rasion orqanizmdə insulinin miqdarını pik həddinə çatdıra bilər. Bu da zamanla kollagenlərin strukturunu dəyişir. Məhz kollagenlərin strukturu damaq sağlamlığı üçün cavabdehdir. Alimlər bu cür pəhriz növləri ilə orqanizmi sınaqdan keçirməyi tövsiyə etmirlər. Konservləşdirilmiş meyvə şirələrindənsə təzə meyvələr yeməyi tövsiyə edirlər.



## Qadınların şirniyyatı sevmə səbəbi bəlli oldu

Kanadanın MV Bill Universitetinin professorları qadınların şirniyyat sevmələrinin səbəbini genetik faktorlarla izah edirlər. Mütəxəssislərin sözlərinə görə, qadınların genlərindən gələn bir hüceyrə dondurmanı, şokoladı, konfeti və digər şirniyyatları onlara daha çox sevdirir. "Apetie" jurnalında yayımlanan nəticələrə görə, 4 yaşları olan 150 uşaqdan hansı yeməkləri daha çox sevdikləri soruşulub. Qızlar daha çox şirniyyatları sevdiklərini deyiblər. Qadınların beynində yeməklərə verilən reaksiyaya nəzarət edən dopamin hormonu qızların daha çox şirniyyatlara yönəlməsinə kömək edir. Araşdırmanı aparan professorlardan biri insanların yeyib-yemədikləri şeylər haqqında onları günahlandırmağa ehtiyac olmadığını deyib. Çünki insanların yemək istəkləri belə genlə əlaqəlidir.

## Qoroskop




**QOÇ** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**BUĞA** - O qədər də əlverişli gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin.

**ƏKİZLƏR** - Əgər qəlbinizdə kiçicik bir iman işığı varsa, gün ərzində Allaha zidd hərəkətlər etməyin. Əksinə, Yaradandan tövbə və bağışlanma diləyin. Heç kimin qəlbinə dəyməyin. Saat 16-19 aralığı çox uğurludur.

**XƏRÇƏNG** - Dünəndən Ayın bürcünüzə girməsi fəaliyyət sahəsində uğurlarınıza mane olmayacaq. Amma yeni münasibət qurmaq, qlobal problemləri həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu deyil.

**ŞİR** - Qarşınızda kifayət qədər məsuliyyətli gün durur. Bu səbəbdən riskdən uzaq olun ki, cəhdləriniz boşa çıxmasın. Nahar ərəfəsində perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

**QIZ** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Müştərək fəaliyyətdən uzaq olun.

**TƏRƏZİ** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**ƏQRƏB** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yöndə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

**OXATAN** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

**OĞLAQ** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq, xüsusən də sevgidə. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Pul məsələlərində isə ehtiyatlı olun.

**BALIQLAR** - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Gözmuncuğu əvəzinə onu taxırlar




**Artıq dünya miqyasında gözmuncuğunu əvəzləyən yeni bir aksesuar tapılıb. Bu, şans və qismətin simvolu sayılan balıqdan ilham alınaraq istehsal edilmiş boyunbağıdır. Bu əşya xüsusən Qərb ölkələrində getdikcə populyarlaşmağa başlayıb.**

Məşhurların dizayneri olan Ben Baller bugünlərdə 20 min dollara brilyantlarla bəzədilmiş "qol balığı" şəklində boyunbağı hazırlayıb. Onu da məşhur ulduzlardan birinin alması ilə balıqlı gözmuncuğu populyarlaşıb. Gözmuncuğuna rəqib olaraq göstərilən şanslı balıq boyunbağısını artıq bir çox məşhur markalar öz kolleksiyasına əlavə edib. "Claire's", "Asgold Jou", "Etsy" kimi markaların da belə gözmuncuğu var.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100